# İSLAMIN
# İNANC ƏSASLARI

... "Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. ... (Yunis surəsi, 108)

HARUN YAHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT

ÖN SÖZ
Allahdan başqa ilah yoxdur
Allah hər yeri əhatə etmişdir
Allah insana çox yaxındır
Allah hər şeyi bir qədər ilə yaratmışdır
Allah hər şeyə qadirdir
Allah hər şeyi bilir və görür
Hər varlıq Allaha boyun əymişdir
Allah haqqındakı batil inanclar
Allaha şirk qoşmadan iman
Allahın böyüklüyünü təqdir edə bilmək
Allahın sonsuz böyüklüyü və qüdrəti
Allah sevgisi və Allah qorxusu
Quran yol göstəricidir
Allahın endirdiyi kitablara və peyğəmbərlərinə iman
Mələklərə iman
Dünya həyatının keçiciliyi
İnsan imtahan olunur
Ölüm son deyil
Axirətə iman
Qiyamətə iman
Diriliş
Hesab günü
Cənnət və cəhənnəm
Məqsəd Allahın məmnuniyyətini qazanmaqdır
Günah və tövbə
İbadətlərdə dəqiqlik göstərmək
Din əxlaqı insanın yaradılışına uyğundur
Möminlər birlik və bərabərlik içində olmalıdır
Son söz
Darvinizmin çöküşü

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini

səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ÖN SÖZ

Bu kitab İslam dinini yeni tanıyan insanlar üçün yazılmışdır. Əlbəttə, hər insanın İslam haqqında müxtəlif məlumatları və qənaətləri vardır. Amma bunlar əksərən əksik ya da yanlış mənbələrdən gəlir. Bir çox insan yalnız ailəsindən və ya yoldaşlarından eşitdiyi, mediadan təqib etdiyi və ya müxtəlif kitablardan oxuduğu qədəriylə İslamı tanıyar, Quranın hökmlərindən xəbərdar olar. Halbuki, İslamı tanımaq üçün müraciət edilməli olan ən yaxşı yol, İslamın qaynağı və təməli olan Quranı tanımaq, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini öyrənmək və İslam ilə əlaqədar bütün məlumatları Qurandan və hədis-i şəriflərdən almaqdır.

Quran, Allahın insanlara yol göstərici olaraq endirdiyi son İlahi kitabdır. Qurandan əvvəl də Tövrat və İncil kimi İlahi kitablar endirilmiş, amma insanlar bu kitabları təhrif etmiş, Allahın sözlərinə insan sözləri qarışdırmışlar. Quran isə yalnız və yalnız Allahın sözlərindən ibarətdir. Allah Öz sözlərini ya bir mələk olan Cəbrayıl vasitəsiylə, ya da birbaşa ürəyinə vəhy surətiylə İslam peyğəmbəri hz. Məhəmməd (s.ə.v)-ə endirmişdir. Quranın içində Peyğəmbərimiz (s.ə.v)-ə Allahın vəhyi var. Qurandakı fərqli ayələr fərqli zamanlarda vəhy olunmuş və Quran 23 il ərzində tamamlanmışdır.

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) özünə vəhy yoluyla gələn ayələri digər insanlara çatdırarkən, ətrafındakı müsəlmanlar bu ayələri əzbərləmiş və yazılı hala gətirmişlər. Daha sonra bu yazılı olan mətnlər toplanmış və surətləri köçürülərək çoxaldılmışdır. Hal-hazırda olan Quranların hamısı eynidir. Heç bir fərqlilik, ya da ziddiyyət yoxdur. (Hal-hazırda 3-cü xəlifə hz. Osmana aid olan Quran, İstanbulun Topqapı muzeyindədir.) Həmçinin, Quranın öz içində də heç bir ziddiyyət yoxdur və bu xüsus Quranın Allah qatından gəldiyinin bir dəlili olaraq bir Quran ayəsində belə bildirilir:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)**

Quran insanları doğru yola aparan bir rəhbərdir. Allah Qatından insanları zülmətdən nura çıxarmaq üçün göndərilmişdir. Bütün canlıları və insanları yaradan Uca Rəbbimiz Öz qullarına həqiqi və doğru yolu Quran ilə göstərir. Qurandakı bir ayədə Allah, "**Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksləirdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir.** " (Yunis surəsi, 57) buyurur.

Burada unudulmamalı olan əhəmiyyətli bir nöqtə vardır. Quran, ancaq sünnənin köməyiylə ümmət tərəfindən tam olaraq başa düşülüb həyata keçirilə bilər. Sünnə isə, Rəsulullah (s.ə.v)-in səhih hədislərinin toplanması və sonra da böyük alimlər tərəfindən şərh edilməsi ilə formalaşan Əhli-Sünnə etiqadıdır.

Sünnə; Quranın, son peyğəmbər, aləmlərə rəhmət, böyük əxlaq sahibi, möminləri çox sevən, onların çətinliyə düşməsini istəməyən, iman edənlərin ağır yüklərini, üzərlərindəki təəssüb zəncirlərini yox edən, Allahın elçisi peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) tərəfindən şərh olunaraq həyata keçirilməsidir.

Mömin, Rəsulullah (s.ə.v)-in sünnəsinə baxar və tətbiqləri ondan öyrənər. Peyğəmbərimiz (s.ə.v)-in bütün həyatında, bütün təfərrüatları hər incəliyi ilə düşünən bir ciddilik, məsuliyyət və həssaslıq görünür. Bu vəziyyət, Rəsulullah (s.ə.v)-in ümmətinə Quran ilə yanaşı, həmçinin "hikmət" i öyrətməyin nəticəsidir.

Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur:

*Şübhəsiz ki, ən gözəl söz Allahın kitabıdır. Ən gözəl yol da Məhəmməd (əleyhissalatu vəssalam)-ın yoludur. İşlərin ən pisi də dinə zidd olaraq sonradan çıxarılandır. (3. Buhârî, I'tisam 2, Edeb70)*

Quranda ən çox bildirilən həqiqətlər; Allahın varlığı, birliyi, yaradılışın dəlilləri və axirət həyatıdır. Allah insanları Quranın bir çox ayəsində Öz yaratdığı varlıqlardakı hikmətləri, dünya həyatının keçiciliyini və axirət həyatını düşünməyə dəvət edir. Bununla yanaşı, Quranda keçmiş peyğəmbərlərin həyatlarından hekayələr izah edilir, onların səmimi imanları, Uca Rəbbimiz Allaha olan bağlılıqları və din əxlaqını yaymaqda göstərdikləri möhkəmlik izah edilir. Qurandakı bəzi ayələrdə də insanların gündəlik həyatında göstərmələri lazım olan nümunəvi əxlaq xüsusiyyətləri bildirilir.

Bu kitabda Allahın bizlərə Quranda öyrətdiyi və Peyğəmbərimiz (s.ə.v)-in xəbər verdiyi məlumatlara əsaslanaraq, Allahı, Onun sifətlərini, bu dünya üzərindəki həyatımızın məqsədini, bu məqsədə çatmaq üçün etməli olduqlarımızı, bizi gözləyən ölümün və ölüm sonrası həyatın həqiqi xüsusiyyətlərini izah edəcəyik.

Bu məlumatları diqqətlə oxuyun və üzərində düşünün. Çünki bu məlumatlar, sizə Yaradıcımız olan Allahı tanıdır və sonsuz xoşbəxtlik və qurtuluşun yolunu göstərir.

# ALLAHDAN BAŞQA İLAH YOXDUR

İslamın təməli, Allahın varlığını anlamaq və Ondan başqa heç bir İlah olmadığını dərk etməkdir. İslam dini, bu ən böyük həqiqətin bir insanın bütün həyatına hakim olması, bütün həyatını bu həqiqətə görə yaşaması deməkdir. İslamın təməl qaynağı olan Quranda, dinin təməli olan bu ən böyük həqiqət Quranda belə ifadə edilir:

**Sizin tanrınız bir olan Allahdır; Ondan başqa heç bir tanrı yoxdur; O, Rəhmandır, Rəhimdir (bağışlayan və rəhmedəndir). (Bəqərə surəsi, 163)**

İnsanların çoxu, ətraflarındakı cisimlərin və öz orqanizmlərini təşkil edən maddənin mütləq varlıq olduğunu sanır, Allahı isə özlərinə görə mücərrəd bir varlıq zənn edərlər. (Allahı tənzih edirik). Halbuki, əslində əsl var olan Allahdır, digər hər şey isə Onun yaratdıqlarıdır.

Yaşadığımız kainatı Allah yaradıb. Kainat yaradılmamışdan əvvəl isə, maddi mənada heç bir şey yox idi; bütün canlı və cansızlar, varlıq halına gətirilməmişdi, tam mənasıyla yoxluq idi. Kainatın yaradıldığı anda; zamanı, maddəni və məkanı, bunların hamısından münəzzəh olan və sonsuzluğun sahibi Əzəli və Əbədi olan Allah yaratmışdır. Bir Quran ayəsində Allahın qüsursuz yaratması belə xəbər verilir:

**Göyləri və yeri yoxdan yaradan da Odur. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq "Ol!" deyər, o da dərhal olar. (Bəqərə surəsi, 117)**

Allah, maddəni yaratdıqdan sonra da hər şeyi nəzarət altında saxlayır. Hal-hazırda meydana gələn hər şeyi, hər an Allah yaradır. Yağan hər yağış damlasını, doğan hər uşağı, yarpaqların fotosintezini, canlıların bədənlərindəki fəaliyyətləri, qalaktikalardakı ulduzların rotasını, yarılan hər toxumu və düşünüb düşünmədiyimiz hər hadisəni Allah davamlı yaradır. Özbaşına meydana gələn heç bir şey yoxdur. Meydana gələn, hər şeyi yaradan Allahdır. Bütün hadisələrin Allahın əmri ilə reallaşdığı Quranda belə xəbər verilir:

**Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)**

**Məxluqatı əvvəldən yaradan, sonra onu yenidən dirildən, sizə göydən və yerdən ruzi verən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin". (Nəml surəsi, 64)**

Öz halına buraxılmış olsa, hər şey, təbii olaraq nizamsızlığa doğru gedər, dağılar, pozular və yox olardı. Halbuki, canlı hüceyrələrindən kainatdakı ulduzlara qədər, bütün sistemlərdəki mükəmməl nizamın davamlılığı, onların üzərində hər an nəzarət olduğunu və hər an eyni mükəmməllikdə yaradıldıqlarını göstərir. Kainatın harasına baxsaq bu mükəmməlliyi və qüsursuzluğu görərik. Ayələrdə belə buyurulur:

**Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir. (Mülk surəsi, 3-4)**

Bütün bu həqiqətlərə baxmayaraq, Allahın yaratmasını rədd edib, Onun yaratdığı varlıqlara şüur isnad etmək, bir göydələnin inşaat ustaları tərəfindən deyil də, kərpiclərin öz qərar və iradələri və ya hamısının təsadüfən üst-üstə düzülməsi sayəsində meydana gəldiyini iddia etmək qədər axmaqlıqdır.

Kainatdakı mükəmməl nizam və canlılardakı qüsursuz sistemlər, bizlərə hamısını tək Yaradıcının, yəni Uca Allahın yaratdığını göstərir. İkinci bir ilah, bu səbəbdən, öz istədiyi kimi etmək istəyən ikinci bir iradə olsaydı, mütləq surətdə bir qarışıqlıq, uyğunsuzluq və ziddiyyət meydana gələrdi. Bir Quran ayəsində, Allahdan başqa heç bir tanrı olmadığı və Ondan başqa heç bir varlığın kainatda gücü olmadığı belə izah edilir:

**Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı ibadətə layiq olan heç bir məbud yoxdur. Əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır (Muminun surəsi, 91)**

Ayədə xüsusilə bildirildiyi kimi, Allahdan başqa heç bir tanrı yoxdur. Və Allahın heç bir surətdə uşağı da yoxdur. O, bu kimi insani sifətlərdən münəzzəhdir. Bu ayədən anlayırıq ki, Allahın uşağı olduğunu, Özünə "oğul" götürdüyünü iddia edənlər də böyük bir yanılma içindədirlər. (Allahı tənzih edirik). Ayələrdə Allahın tək olduğu həqiqəti belə izah edilir:

**De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur". (İxlas surəsi, 1-4)**

# HƏR ŞEYİN ALLAHIN QÜDRƏTİNDƏ OLDUĞUNU BİLƏRƏK HƏRƏKƏT ETMƏK

ADNAN OKTAR: *Dərin düşünmədə ilk istəniləcək şey; Allahdan müstəqil ağıla sahib deyilik biz, yəni insan bunu bilməlidir.* **Allaha qarşı hörməti tam formalaşdırmaq lazımdır. Allah istəməsə, biz heç bir şey diləyə bilmərik. Allah danışdırmadıqca heç bir şey danışa bilmərik.** *Tamamilə hər şey Allahın nəzarətindədir. Qədərimizdə olanı biz görərik.* **İlk bunu bilməlidir insan, bunu bildiyində şirkdən xilas olar, başqa cür "mən edirəm, mən düzəldirəm" desə şirk olar, ağılı da bağlanar.** *Məsələn, hal-hazırda da bizi danışdıran Allahdır, sizi də, məni də danışdıran Allahdır. Tək söz deyə bilmərik Allah istəməzsə. Gözəl dua etmək lazımdır, ağıllı dua etmək lazımdır.* **Ya Rəbbim deməli, bütün güc, qüvvə sənin əlindədir, varlığın açıq, çox aşkardır, mənim imanımı heç sarsılmaz çox güclü dərin, kəskin bir imana çevir. Dərinləşdir və heç dəyişməsin, heç bir şeylə sarsılmasın Ya Rəbbim, deməlidir. Belə ki, bu neməti qazanan bir insan ondan sonrası hamısı tamamdır.** *Bütün məsələ çox güclü və qərarlı bir imandadır. Ondan sonra Allah qorxusu da olar, Allah sevgisi də olar, bərəkət də olar, ağıl, fikir də gəlir insana, dərinlik də gələr, ehtiras da gələr, hər şey gələr, ilk əvvəl sarsılmaz qərarlı bir iman olmalıdır. Bunun üçün də çox sağlam bir vicdan lazımdır, vicdanı çox güclü olmalıdır, çünki hər gün bizi sarsıdacaq hadisələrlə qarşılaşırıq. Zəif varlıqdır insan.*

*Allah, şeytandan Allaha sığınıram, "insan zəif yaradıldı" (Nisa surəsi, 28) deyir. İnşaAllah. Zəif yaradıldı nə demək, hər istiqamətdə zəifdir. Yəni bədən cəhətdən, məsələn, baxın qrip epidemiyası var, hər kəs yataqlarda yatır, deyilmi? Ciddi ölüm təhdidi də olar insanda. Kiçik bir virus, heç görülməmiş bir virus bir insanı rahatca öldürə bilər, yəni güclü deyilir, sağlam dediyiniz adamı da, məğlub edilməz dediyiniz adamı da, çox rahatca devirər bir insanı. Bizim edəcəyimiz tam olaraq Allaha təslim olmaqdır... Dünya artıq yaşlandı, artıq son dövrünü yaşayır.* **Vicdanı sıxmamaq, özünü buraxmaq, eşqlə Allahı sevmək, dəlicəsinə aşiq olmaq, sevgiyə könül vermək çox əhəmiyyətlidir.** *Allahı sevmək, Allaha dərin inanmaq, Allahın dəlillərini yaxşı araşdırmaq lazımdır. Allahı sevmək üçün, çünki Allah deyir ki:* **"Elm sahibləri Allahdan haqqı ilə qorxarlar"** *(Fatir surəsi, 28) deyir, şeytandan Allaha sığınıram.*

*Elm sahibi nə deməkdir? Bütün elm sahələrində tədqiqatlar aparan insan. Fizika, kimya, biologiya, paleontologiya-hər sahədə Allahın dəlillərinə baxmaq lazımdır. Allahın dəlillərinə baxanın imanı dərinləşər.* **Atomun quruluşuna baxacaq, hüceyrənin quruluşuna baxacaq, geologiyanı araşdıracaq, paleontologiyanı araşdıracaq, astronomiya ilə maraqlanacaq, göy elmi ilə məşğul olacaq, kosmosdakı cisimləri araşdıracaq, sonsuzluğu düşünəcək Big Bang-ı düşünəcək, maddənin ilk yaradılışını düşünəcək, bunların hamısını düşünə-düşünə beyin fövqaladə şəkildə inkişaf edər və bu da böyük güclü bir imana səbəb olar, amma təbii Allaha tam təslimiyyət lazımdır.** *(Adnan Oktarın Kayseri TV reportajından, 29 noyabr 2009)*

# ALLAH HƏR YERİ ƏHATƏ ETMİŞDİR

İnsanların bir qismi, Allahın müəyyən bir yerdə olduğunu zənn edər. Xüsusilə Allahın səmada, kainatın uzaq bir yerində olduğu şəklindəki bir batil inanc olduqca geniş yayılmışdır. (Allahı tənzih edirik). Əslində isə, Allah hər yerdədir və hər şeyi əhatə etmişdir. O, əsil və tək mütləq varlıqdır və bütün varlıqların Ona boyun əydiyi bir ayədə belə xəbər verilir:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur (Bəqərə surəsi, 255)**

Allah, hər an, hər yerdədir. Allahın olmadığı heç bir yer, nəzarətinin olmadığı heç bir varlıq və canlı yoxdur. Hər şeyə gücü çatan Allah hər cür zəiflik və acizlikdən münəzzəhdir.

Allah, tək mütləq varlıq olaraq, bütün kainatı, bütün insanları, yerləri, göyləri, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli edir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v), Allahın göydə olduğunu söyləyən bir şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət, Allahın hər yerdə olduğu həqiqətiylə heç bir şəkildə ziddiyyət təşkil etmir. Çünki, dünyanın sizin olduğunuz nöqtəsindəki bir adam əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, Cənub qütbündə bir başqa insan da eyni şəkildə Allaha yönəlsə, Şimal qütbündə bir insan əllərini göyə qaldırsa, Yaponiyadakı bir insan, Amerikadakı bir insan, Ekvatordakı bir insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönəlsə, bu vəziyyətdə hər hansı bir sabit istiqamətdən söz etmək mümkün deyil. Eyni şəkildə kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua etsə hər hansı bir sabit göydən və ya istiqamətdən bəhs etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən bir vəziyyət olacaq.

Bunu da unutmamaq lazımdır ki, Allah zamandan və məkandan münəzzəhdir. Allahın Zatı başqadır. Allahın təcəlliləri isə hər yerdədir. **Bir insan bir otağa girsə və "burada Allah yoxdur" desə, Allahı inkar etmiş olar. Allahın təcəlliləri o otaq da daxil hər yerdədir.** Siz hər tərəfə yönəlsəniz, Allahın təcəllisi oradadır. Allahın hər yeri əhatə etdiyi, bizə şah damarımızdan yaxın olduğu, hər hansı səmtə yönəlsəniz, Allahın üzünü görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Məsələn, Allah Bəqərə surəsinin 255-ci ayəsində "... **Onun kürsüsü, bütün göyləri və yeri örtüb-əhatə etmişdir** ...." deyə bildirir. Hud surəsinin 92-ci ayəsində isə, "... **Həqiqətən, Rəbbim nə etdiklərinizi biləndir."** deyilərək, Allahın insanları da, etdiklərini də əhatə etdiyi bildirilmişdir.

# ALLAH İNSANA ÇOX YAXINDIR

İnsanların böyük bir əksəriyyəti Allahı özlərindən uzaq zənn edər. Halbuki əslində, Allah "**Rəbbin insanları əhatə etmişdir**" (İsra surəsi, 60) ayəsində buyurduğu kimi insanlara çox yaxındır. İnsanın hər vəziyyətini görər, hər səsini eşidər. Hətta içindən keçən düşüncələri, qəlbindəki sıxıntı və vəsvəsələri bilər. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından daha yaxınıq. "(Qaf surəsi, 16)**

Allah hər dua edənin, içində etsə belə, duasını eşidər və ona cavab verər. Bu vəziyyət Quranda belə xəbər verilir:

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)**

Allah insanın ürəyindən keçənləri də bilir. İnsanın etdiyi bir davranışı Öz rizası üçünmü, yoxsa nəfsini təmin etmək üçünmü etdiyini bilir. Bir Quran ayəsində, Allahın insanların düşüncələrini bildiyi belə xatırladılır:

... **Bilin ki, Allah sizin qəlblərinizdə olanları bilir. Ondan qorxun! Bilin ki, Allah Bağışlayandır, Rəhmlidir!. (Bəqərə surəsi, 235)**

**Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir. (Taha surəsi, 7)**

Allah, bu kitabı oxuduğunuz anda da hər an olduğu kimi sizin yanınızdadır, sizin nə etdiklərinizi görür və nə düşündüyünüzü də bilir. Bu həqiqət Quranda belə bildirilir:

**Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

# ALLAH HƏR ŞEYİ BİR QƏDƏR İLƏ YARATMIŞDIR

**Heç şübhəsiz, Biz hər şeyi qədər ilə yaratdıq. (Qəmər surəsi, 49)**

Qədər; Allahın, keçmiş və gələcək bütün hadisələri, zamansızlıqda, yəni tək bir an olaraq təqdir edib yaratmış olması və bilməsidir.

Allah, maddəni yaratmış, maddənin hərəkəti olaraq da zamanı yaratmışdır. Zaman ancaq insan üçün keçərli bir ölçüdür. Zaman, insan üçün keçər, insan ancaq zaman keçdikcə nə yaşadığını görər. Ancaq Allah əlbəttə ki, Öz yaratdığı anlayış olan zamana tabe deyil. Bir başqa sözlə, Allahın zamanın axışını gözləməsi, insanların zaman içində nə edəcəklərini gözləyərək görməsi qətiyyən mümkün deyil. Allah bütün bu əksikliklərdən pakdır, müqəddəsdir. Allah zamana tabe olmadığı, Əzəli və Əbədi olaraq mütləq və sonsuz olduğu üçün, bizim üçün gələcəkdə yaşanacaq olan bir hadisəni, daha yaşanmadan bilir. Bizim üçün minlərlə il sonra olacaq bir hadisəni, Allah zamansızlıq ölçüsündə bilir. Onsuz da, o hadisənin olmasını diləyən, təqdir edən və yaradan da Özüdür. Bu böyük sirr, Quran ayəsində belə bildirilir:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. (Hədid surəsi, 22)**

# "SONSUZ QISA ZAMAN, AN İÇƏRİSİNDƏ, ALLAH SONSUZ ƏVVƏL VƏ SONSUZ SONRANI YARADIB BİTİRMİŞDİR"

**ADNAN OKTAR:** *İnsanlar həmişə gecə-gündüz, səhər qalxdığında, ən çox insanların üstündə dayandığı mövzu Allahın varlığı, ölüm, axirətdə nə olacaq, qədər ilə əlaqəli mövzulardır. Yəni hər nə qədər insanlara hiss etdirməsələr də, bu gecə-gündüz beyinlərində olan əsas mövzudur. Çünki televizorda hər gün bir insanın ölümü ilə əlaqədar film göstərilər, ən azından bir böcək ölüsü belə görmüş olsa bir insan, ölümü xatırlayar, özünü də düşündüyündə ölümü xatırlayar. Qədər mövzusunda çox sıxıntıları olar, qədər mövzusunu bu qədər izah etməyimə baxmayaraq yenə etirazlar var, yenə izah edirlər. Deyirlər, "təbii ki, Allah bir qədər yaratmışdır, bir külli iradə vardır, amma bir də cüzi iradə vardır". Yəni, "Allahın haşa nəzarət edə bilmədiyi bizə məxsus kiçik bir güc vardır" deyirlər, "bizə aid". Yəni, "bizim nə edəcəyimizi Allah bilmir və yaxud bilir, amma zəif bilir kimi və biz bir işi edərkən Allah bizə iki yolu göstərir, amma bizim hansı yoldan gedəcəyimizi, haradan gedəcəyimizi də bilməz. Biz cüzi iradəmizlə haşa o yolu seçərik. Allaha da haşa bir sürpriz məlumat olar bu, ilk dəfə qarşılaşar və beləcə Allah bizi imtahan etmiş olar".* **Belə bir mövzu yoxdur, cüzi iradə də, külli iradə də hər ikisini də Allah yaratmışdır. Baxın, tək bir an vardır, tək bir an nə deməkdir, sonsuz qısa zamandır. Yəni an deyilən şey sonsuz qısa zamandır. Sonsuz qısa zaman an içərisində Allah sonsuz əvvəl və sonsuz sonranı yaradıb bitirmişdir.** *Yəni ediləcək bir şey yoxdur, yəni edəcəyi bir şey yoxdur.* **Yaxşı bu vəziyyətdə sənin cüzi iradən necə qədər içində olmur, bu səbəbdən belə eqoist və özünü haşa Allah kimi görən insanlar, bir qisim insanlar bu mövzunu heç cür həzm edə bilmirlər.** *Yəni Allahın cüzi iradəni də külli iradəni də yaratmış olması onlara təsir edir nə hikmətdirsə ...*

# "BİZ ALLAHIN TƏCƏLLİSİYİK VƏ HƏR YERDƏ ALLAH VAR"

**ADNAN OKTAR:** *... İkinci narahat olduqları mövzu da Allahın hər yerdə olmasıdır, Allahın göydə olmasını istəyirlər, göydə bir yerdə müəyyən bir nöqtədə olmasını istəyirlər. Yəni göyün hər yerində də deyil, amma bax, göydə müəyyən bir nöqtədə, yəni sonsuzluğa görə demək olar ki, heç sayılacaq bir yerdə, çünki sonsuzluqla müqayisə etdiyimizdə hər hansı bir yerdə olan nə qədər böyük olursa olsun, bir həcm alan bir şey ki, haşa bizim belə bir inancımız yoxdur, sonsuz kiçikdir. Elə deyilmi sonsuz kiçikdir, vardır, amma kiçikdir. Məsələn, deyir ki, birisi yaxınlarda yazmış, "Əgər Allah otağının içindədirsə və bizim hər yerimizdədirsə, o zaman biz özümüz də Allah olmuş oluruq", deyir haşa. Biz Allahın Zatına ibadət edirik, təcəllisi olmaq ayrıdır, deyil mi?* **Allahın Zatı ayrıdır, biz Allahın Zatına tapınırıq. Təbii ki, biz Allahın təcəllisiyik və hər yerdə Allah var. Bizim bədənimizin içində də var. Adam istəmir bədəninin içində Allahın olmasını, buna görə də, otağının içində də olmasını istəmir. Harada olmasını istəyir? Allahın göydə və çox-çox uzaqlarda katrilyonlarca kilometr kənarda bir yerdə orada durmasını istəyir, haşa**. *"Bu, niyə belə olmalıdır?" deyir, "niyə lazımdır bu" deyir, "anlamıram bunu". Yəni demək ki, soruşsan "Allah burada var mı" deyiləndə, "yox" deyəcək insan. Harada? "Göydə, amma burada Allah yoxdur" deyəcək, bu səbəbdən "dünyada da yox deyəcək Allah", elə deyilmi? "Allah göydədir, amma burada yoxdur". "Yalnız məlumatı çata bilər" deyir "Allahın özü olmaz" deyir. "Biz mütləq varlığıq" deyir, "Allah kölgə varlıq", hətta mən uşaqlığımda eşidərdim. "Allahı isbat et" deyərdilər, "sən televizor görünüşünü göstərə bilərsənmi? Radionun səsini göstərə bilərsənmi? "Və yaxud ağlını göstərə bilərsənmi, onun içindəkini, ağlını göstərə bilmədiyinə görə Allahı da göstərə bilməzsən", kimi açıqlayırdılar. Doğrudur, Allah görünməz, yəni məkanı olan, zamanı olan bir varlıq deyil Allah. Zamanın və məkanın xaricində, lakin bu şəxslərin buradakı əsil məqsədi daha fərqli, məsələn deyirlər ki,bir gənc qız varmış Peyğəmbər (s.ə.v)-ə gəlmiş. Rəsulullah (s.ə.v) "Allah haradadır?" Demiş, "Allah göydə" demiş. "Doğru söylədin" demiş Peyğəmbər (s.ə.v). Bunu dəlil olaraq göstərib, Allahın göydə olduğuna inanırlar.*

*Yaxşı, Allah göydədir, indi əlini qaldırdığında göyə doğru qaldırar uşaq, olduğu Ərəbistanda bunu deyir. Şimal qütbündə də bir insan göyə qaldırır əlini Allaha dua edir, Cənubi qütbündə də elə deyilmi, ekvatorda da biri qaldırır. Yəni dünyanın, kürənin bütün ətrafındakı insanlar hamısı əlini yuxarıya qaldırır. Marsda, Uranda digər bütün sistemlərdə, bütün varlıqlar əllərini göyə qaldırırlar. Belə bir vəziyyətdə kosmos boşluğunun hamısını əhatə edən bir vəziyyət olmurmu? Deyilmi? Hər yerdə əlini qaldırdığına görə, hər yer göy olduğuna görə deyilmi, məsələn, Marsdakı bir insan üçün göy aləmi dünya olmuş olur eyni zamanda elə deyilmi? Əlini qaldırdığında Dünyaya doğru qaldırmış olur, dünyadakı bir insan əlini qaldırdığında bir başqa planetə doğru əlini qaldırmış olur, bu səbəbdən 360 dərəcə hamısını əhatə edən bir vəziyyət olmuş olur. Məsələn, bunu düşünməmişlər, bunu söylədikdən sonra zınq deyə bu şey dayandı, bu anormal inanclarında bir daha gəlmədi. Lakin yenə də küncdən-bucaqdan belə batil inanclı insanlar çıxır, belə izahlar edən,* **üstəlik, hələ cüzi iradə iddiasında olanlar var. Bacı-qardaşlarım, yaxşı, cüzi iradə var və qədərin içərisində var. Yəni Allahın yaratdığı qədərin içərisində var, qədərdə yaratmış bitmiş, sən orada seçirsən, sən özün seçirsən, amma bu sənin qədərində olmuş olur, bu səbəbdən sənin, yəni Allaha haşa sürpriz etmək imkanın yoxdur, yəni elə Allahın bilmədiyi bir şeyi edə bilməzsən, var olan, yaşanmış olan bir şeyi edərsən, etmiş olarsan bu qədər ...**

# "CÜZİ İRADƏ DƏ, KÜLLİ İRADƏ DƏ ALLAHIN QATINDA OLUB BİTMİŞDİR"

ADNAN OKTAR: ... *İndi bunu söylədikdə, insanlar yanlış anlayır. Azad iradə yoxdur deyincə, "O zaman biz necə məsul oluruq?" deyir. Bacı-qardaşlarım indi burada ilk olaraq insan öz ağlı ilə öz imkanı ilə düşündüyünü zənn edir. Bütün düşüncəni yaradan Allahdır. Məsələn, indi mən danışıram, bunun hamısını Allah yaradır. Amma bu mövzunu anlamaları üçün insanlardan soruşuruq, deyirik ki, məsələn, bir marksist; "Sən Marksist olarkən, olduğunda və ya indi hər hansı bir təzyiqlə qarşılaşırsanmı, bir təzyiq varmı yəni beyninə, şüuruna təzyiq edilirmi?" "Yox" deyir "mən azad iradəmlə edirəm" deyir, məhz bu ədalətin özüdür. Məsələn, bir müsəlmana da soruşduğumuzda "səni məcbur edən kimsə varmı" deyirik "hər hansı bir güc yoxdur" deyir. "Mən öz azad iradəmlə edirəm" deyir. Hər ikisi də qədərində olanı etmiş olurlar .... Onun üçün israrla "cüzi iradəm var mənim, cüzi iradəm var" deyir, bəs sənin cüzi iradəni kim yaradır? Allah yaradır, o zaman yenə o, Allahın iradəsi içərisində qədərdə olmuş bitmiş hadisədir. Bu səbəbdən, bunu ağıllarına yaxşı şəkildə yerləşdirəcəklər, cüzi iradə də, külli iradə də Allahın Qatında olub bitmişdir, tək bir an var olduğuna görə, baxın, maraqlı olan da budur, mən deyirəm ki, tək bir an var, sonsuz qısa bir zaman. "Doğru mu?" deyirəm, "doğrudur" deyir. Hər şey bu tək bir an içərisində olub bitdi. "Bu doğrumu?" deyirəm, "bu da doğrudur" deyir, "Allah zamanın xaricindədir" deyirik, "bu da doğru" deyir, "yaxşı o zaman izah et mənə taleyi" deyirəm, "bizim cüzi iradəmiz var", deyir. "Bir də külli iradə var, amma cüzi iradəni biz edərik" deyir. Bəs bacım, qardaşım bayaq nə söylədim mən, "tək bir an içində etdim bitdi" demədinmi sən, elə deyilmi? Tək bir an içində hər şey olub bitdiyinə görə hamısını Allah bilir və olmuş. Yaxşı sənin o cüzi iradən nəyi etmiş olur, yəni sən Allahdan müstəqil bir şeymi edirsən? Yox, qədərdə onu etmiş olursan, yəni yenə Allahın gücünün bir təcəllisi ilə qarşılaşırsan sən. Amma insanların anlaması üçün buna cüzi iradə deyilir, külli iradə deyilir. Külli iradə də cüzi iradə də Allah Qatında olub bitmişdir.* **Amma insan deyirsə ki, "yox külli iradə Allaha aiddir, cüzi iradə də mənə aiddir. Mənim etdiklərimi mən bilirəm, Allah bilməz, Allaha mən haşa sürpriz olaraq bunları edirəm "deyirsə, bu küfr olar.** *Bu aydındır, ona görə heç kim boş yerə çırpınmasın, saxta ziyalı havalarına da girməyə ehtiyac yoxdur. Marksist təqlidi etməyə də ehtiyac yoxdur.*

*"Allah göydədir" məntiqindən də imtina etmələri lazımdır. Bu da bir şirkdir. Allaha məkan izafə edirlər. Və çox kiçik bir məkan içərisinə Allahı haşa sıxışdırmağa çalışırlar. Belə bir şey olmaz. Allah hər yerdədir.* **"Şah damarınızdan daha yaxınam"** *(Qaf surəsi, 16) deyirsə Allah bu bitdi. Yəni bu möhkəm ayədir, açıqdır. Şah damarımızdan. Deməki, Allah hər yerdədir. Niyə hər yerdə olmaması lazımdır ki? "Biz hər yerdəyik, mən hər yerdəyəm, amma Allah heç bir yerdə" deyir, haşa. Bu, Allahı inkar etmək kimi bir şeydir. Allah məsələn, bizim dilimizdə, barmaqlarımızda, hər yerdədir Allah. Hər yerə hakimdir. Hamısını hərəkət etdirən Odur onsuz da. Hər yerdə olduğu üçün, yəni güc tamamilə Onun idarəsində olduğu üçün hər şeyi O edər. Bu səbəbdən, biz aciz, Allahın kölgə varlıqları olaraq yaratdıqları, özünü mövcud zənn edən varlıqlarıq. Kölgə varlıqlarıq inşaAllah. Bir təcəlliyik biz. Yəni Allahın ruhundan üfürdüyü xəlifəsi olan varlıqlarıq inşaAllah.*

*Ayədə açıq şəkildə söyləyir bax,* **"atdığın vaxt sən atmadın, Mən atdım"** *(Ənfal surəsi, 17) deyir. Bu nədir? Adam daşı yerdən atır, "mən atdım" deyir, Allah "sən atmadın" deyir. Möhkəm ayədir, açıqdır, "Mən atdım" deyir. "Sənə atırmışsan kimi göstərildi", deyir, yəni "sən atırmışsan kimi göstərdim" deyir Allah. "Amma atan Mənəm". Yəni "o qolu*

*yaradan Mənəm, daşı yerdən alan Mənəm, atma hərəkətini edən mənəm", elə deyilmi? "O hisslərin hamısını meydana gətirən mənəm. bu səbəbdən sənin həmin zaman etdiyin bir şey yoxdur. Sən özün etdiyini zənn edirsən. "bu ayənin mənası budur inşaAllah. (Adnan Oktarın Ekin TV reportajı, 4 yanvar 2010)*

# ALLAH HƏR ŞEYƏ QADİRDİR

Allah, hər şeyin Yaradıcısı olaraq, bütün varlıqların üzərində tək əmanət sahibidir. Buludları Allah hərəkət etdirər, külələri Allah əsdirər, Günəşə Allah istilik və işıq verər, quşları havada Allah saxlayar, toxumu Allah yarar, insanın ürəyini Allah döyündürər, bitkilərə Allah fotosintez etdirər, planetləri orbitində Allah gəzdirər. İnsanlar bu kimi hadisələrin "fizika qanunları", "cazibə qüvvəsi ilə", " aerodinamika ilə" və buna bənzər maddi amillərlə meydana gəldiyini zənn edərlər, halbuki bəzi insanların unutduğu əhəmiyyətli bir həqiqət vardır: Bütün fizika qanunlarının Yaradıcısı Allahdır. Kainatda tək qüdrət sahibi olan Allahdır.

Biz yatarkən, oturarkən, yeriyərkən, ağlımızın ucundan belə keçirmədiyimiz Allah kainatda var olan bütün sistemlərin hamısını anbaan yaradır. Varlığımızın davamı üçün meydana gələn proseslərin hər biri Allahın nəzarətindədir. Kiçik bir addım ata bilməyimiz belə, yerin cazibə qüvvəsindən skelet sistemimizə, sinir və əzələ sistemimizdən beynimizə və ürəyimizə, hətta dünyanın fırlanma sürətinə qədər hər şey Allahın incə-incə yaratmasına bağlıdır.

Dünyanın və bütün kainatın varlığını davam etdirə bilməsini təsadüflərə bağlamaq isə çox böyük bir səhv olar. Əslində dünyadakı və kainatdakı nizam, təsadüfə qətiyyən yer olmadığının və Uca Allahın sonsuz gücünün açıq bir dəlilidir. Məsələn dünya, Günəş ətrafında fırlanarkən elə bir orbit cızar ki, hər 29 kilometrdən bir doğru xətdən yalnız 2.8 millimetrlik meyillilik göstərir. Əgər bu meyillilik 0.3 millimetr az və ya 0,3 millimetr daha çox olsa, yer üzündəki canlılar donaraq və ya qovrularaq ölərdilər. Kiçik bir maddənin belə millimetr kənara çıxmadan eyni orbitdə fırlana bilməsi haradasa mümkünsüzkən, nəhəng kütləsilə dünya bu cür dönüşü həyata keçirir. Quranda, **"... Allah hər şey üçün bir ölçü qoymuşdur"** (Talaq surəsi, 3) ayəsində bildirildiyi kimi, ətrafımızda gördüyümüz möhtəşəm nizam, Allahın milyardlarla ifadə edilən böyüklükdəki sistemləri millimetrlərə bağlı tarazlıqlarla qoruması sayəsində ortaya çıxar.

İnsanların bir qismi, Allahın "hər şeyi yaradıb buraxdığı", sonra bu nizamın öz-özünə davam etdiyi şəklində səhv bir inanca sahibdirlər. Halbuki, kainatın hər nöqtəsində hər an meydana gələn bütün hadisələr Allahın izni ilə, Onun biliyi və nəzarəti altında həyata keçir. Quranda bildirildiyi kimi:

**Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda (Lövhi-məhfuzda) mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır. (Həcc surəsi, 70)**

Canlıların bədənlərində reallaşan və hər biri son dərəcə kompleks olan hadisələr də, Allahın qüdrətini qavramaq üçün yaxşı bir nümunədir. Məsələn, sahib olduğunuz böyrəklər hər saniyə qanınızı təmizləyir, qanın içində bədəninizə zərərli olan molekulları digərlərindən seçib ayırır, zərərliləri bədəndən atır. Bunu edənlər, böyrək hüceyrələridir. Bir böyrək hüceyrəsinin etdiyi bu təmizləmə və təhlil əməliyyatını edə bilmək üçün, nəhəng dializ maşınları istifadə edilir. Bunlar isə, tibb və biologiya mövzusunda mütəxəssis olan insanlar tərəfindən planlaşdırılmışdır. Amma böyrək hüceyrəsinin nə gözü, nə bir başqa duyğusu, nə qərar vermə mərkəzi, nə də düşünmə qabiliyyəti vardır. Qısacası, bir böyrək hüceyrəsi heç bir şüura sahib deyilkən, böyük şüur tələb edən işlər edir.

Canlıları araşdırdığımızda bunun kimi milyonlarla nümunəyə rast gəlmək mümkündür. Şüursuz maddələrdən ibarət olan molekullar, son dərəcə şüurlu işlər görərlər. Məhz burada açıq şəkildə görünən şüur, Allahın sonsuz ağıl və məlumatının təcəllisidir. Böyrək hüceyrələrini də, onlara fayda verən molekulları da nəzarəti altında tutan, edəcəkləri işləri onlara etdirən

Allahdır. Allah, yaratmış olduğu varlıqlara daimi olaraq "əmrlər" endirdiyini bir ayəsində belə xəbər verir:

**Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)**

Kainatdakı hər şeyi yaradan Allahın, əlbəttə ki, ölüləri də diriltməyə gücü çatacağı açıq-aşkardır. Bu həqiqət bir ayədə bu şəkildə xəbər verilir:

**Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayan Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi? Sözsüz ki, O, hər şeyə qadirdir. (Əhqaf surəsi, 33)**

# ALLAH HƏR ŞEYİ BİLİR VƏ GÖRÜR

İnsanlar Allahı, Onun istəyinin xaricində görə bilməzlər. Görə bilmədikləri üçün də, insanların bir qismi çox vaxt qəflətə düşər və Allahın özlərini görmədiyi zənninə qapılarlar. Halbuki, Allah kainatdakı hər hadisəni ən incə təfərrüatına qədər görər və bilər. Bu həqiqət bir ayədə belə xəbər verilir:

**Gözlər Onu dərk edə bilməz; O isə bütün gözləri idrak edər. O, lətifdir, xəbərdar olandır. (Ənam surəsi, 103)**

İnsan hər harada olursa olsun, Allah mütləq onunla birlikdədir. Hal-hazırda da, Allah sizin bu sətirləri oxuduğunuzu görür və nələr düşündüyünüzü bilir. Hər hara gedirsinizsə gedin, hər nə edirsinizsə edin bu həqiqət dəyişməyəcək. Allah, insanları hər yerdə gördüyünü Quranda belə xəbər verir:

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

**Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür (Hədid surəsi, 4)**

Bu həqiqətin şüurunda olan mömin, hər zaman özünü Allaha təslim etməli, Onun himayəsinə sığınmalı, Ondan qorxmalı və başqa heç bir şeydən qorxmamalıdır. Allahın, hz. Musa (ə.s) və hz. Harun (ə.s)-a verdiyi əmr, bütün möminlər üçün yol göstəricidir. Ayədə belə buyurulur:

**Dedi ki: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm. (Taha surəsi, 46)**

# ALLAHA KÖNÜLDƏN TƏSLİM OLAN FÖVQƏLADƏ ARXAYINLIQDADIR

ADNAN OKTAR: *Şeytandan Allaha sığınıram. "***Onun dəlillərinin bəzisini sizə göstərməkdən ötrü dənizdə gəmilərin Allahın neməti sayəsində üzdüyünü görmürsünüzmü?***." "Mən aparıram" deyir Allah gəmiləri. "* **Şübhəsiz ki, bunlar səbirli olanlar və şükür edənlər üçün bir ibrətdir.*** " (Loğman surəsi, 31) Baxın, həmişə səbir etmək. Səbirlə biz gözəl əxlaqa qovuşuruq. Cənnət əxlaqı, cənnət şəxsiyyəti səbirlə formalaşar. "Çox şükür etmək" və daima Allaha, verdiyi nemətlərə həmd etmək. Keçən gün də bu səhifəni açmışdıq, eyni səhifə çıxmış maşaAllah. "Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar" (Loğman surəsi, 21) Uhretul vuska. Habdullahul mətn. Allahın qopmayan, qoparılmayan ipi. Qurana möhkəm-möhkəm sarılanda, İslama möhkəm-möhkəm sarılanda insan fövqaladə arxayınlıqda olar. Fövqaladə bir rahatlıq hiss edər; ruhən də, fiziki olaraq da. Amma bunu ən mükəmməl şəkildə etmək lazımdır...* **Baxın, deyir ki, Allah, "möhkəm dəstəkdən yapışmış". Toxunmuşdur demir Allah, "yapışmaq" möhkəm-möhkəm sarılmaq. Qurana çox möhkəm sarılmaq lazımdır** ... *Deyir ki, məsələn, vəsvəsələrim var, sıxıntılarım var, bu var. Demək ki, yalnız toxunursan, sarılsan bunlar olmaz. Yəni möhkəm-möhkəm sarılsan, bunlar olmaz. "Biz onları az bir şey və zaman olaraq faydalandırarıq. Sonra onları ağır bir əzaba dözməyə məcbur edərik. "Yəni insanlar bu cür gəzib əylənməklə, yeyib-içməklə Allahın onları buraxdığını zənn edirlər. Halbuki, Allah onları buraxmır, Allah onları imtahan edir. Özündən uzaqsa, Qurandan uzaqsa, o müvəqqəti bir nemət kimi görünür, amma onun əleyhinə olmuş olar. Onu daha cəhənnəmə yaxınlaşdıran, daha çox əzab çəkməsinə səbəb olan bir vəsilə olmuş olar. (Adnan Oktarın Kocaeli TV reportajından, 30 oktyabr 2009)*

# HƏR VARLIQ ALLAHA BOYUN ƏYMİŞDİR

Kainatda olan canlı və cansız hər varlıq, Allahın iradəsinin altındadır. Ancaq O istədiyi təqdirdə hərəkət edə bilərlər və nə istəsə ancaq onu edə bilərlər. Məsələn, öz ehtiyacından artıq bal istehsal edən arıları, balın insana faydalı olacağını bilə bilməzlər; balın faydalı və gözəl olmasını tələb edən kimyəvi tərkibi də bilməzlər. Həmçinin, ehtiyaclarından çox balı nə səbəbə istehsal etdiklərinin fərqində olmadıqları kimi, dizayn və hesab möcüzəsi olan müntəzəm altıbucaqlılardan ibarət pətəkləri qura biləcək ağıl və elmə də sahib ola bilməzlər. Arılara bütün bunları etdirən, bütün varlıqların Ona boyun əydiyi Allahdır. Arıların bunları Allahın vəhyi ilə etdikləri Quranda bizə belə bildirilir:

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

Arıların vəhylə hərəkət etməsi istisna olan bir vəziyyət deyil. Arılar kimi, insanlar da daxil olmaqla, bütün varlıqların da eyni şəkildə Allahın ilhamı ilə hərəkət etdiklərini anlamağımız üçün Allah bu nümunəni verir və üzərində düşünənlər üçün bunun bir dəlil olduğunu vurğulayır. Bütün varlıqlar Allahın ilhamı ilə hərəkət etdikləri üçün, Ona könüldən boyun əymişlər. Bu həqiqət bir ayədə belə bildirilir:

**Göylərdə və yerdə olanlar Onundur; Hamısı Ona könüldən boyun əymişdirlər. (Rum surəsi, 26)**

Bəzi insanlar, şeytanın Allahdan müstəqil bir güc olduğunu zənn edərlər. (Allahı tənzih edirik). Bəzi batil dinlərdə də şeytana Allahdan ayrı bir güc aid edilir. Halbuki, bütün bunlar böyük bir azğınlıqdır. İstər şeytan, istərsə də onun yolundan gedən inkarçılar, Allahın iradəsinə boyun əymişlər. Allah insanları imtahan etmək üçün şeytanı yaratmış, ona insanları inkara dəvət etmə gücü və səlahiyyəti vermişdir. Quranda Allahın şeytana xitabı belə izah edilir:

**Allah dedi: "Çıx oradan! Sən artıq rəhmətimdən qovulmuşsan!**

**Haqq-hesab gününə qədər lənətim sənin üzərində olacaqdır!"**

**İblis dedi: "Ey Rəbbim! Onlar dirildiləcəkləri günə qədər mənə möhlət ver".**

**Allah dedi: "Sən möhlət verilənlərdənsən –**

**vaxtı məlum olan günə qədər!"**

**İblis dedi: "Sənin qüdrətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam;**

**Təkcə Sənin seçilmiş ixlaslı qullarından başqa!"**

**Allah dedi: "Budur haqq! Mən yalnız haqqı deyirəm!**

**Mən Cəhənnəmi səninlə və sənə tabe olanların hamısı ilə dolduracağam!" (Sad surəsi, 77-85)**

İnsanın hər hərəkətinin və hər halının Allaha bağlı olması kimi, şeytan da tamamilə Allahın idarəsindədir və Onun iradəsinə boyun əymiş vəziyyətdədir. Özbaşına qərar ala bilən və

tətbiq edə bilən, müstəqil iradəyə sahib olan bir varlıq deyil. Dünyadakı imtahan mühiti içində, doğrularla yalançıları bir-birindən ayırmaq üçün Allah şeytanı bir vəsilə olaraq yaratmışdır.

# ALLAH HAQQINDAKI BATİL İNANCLAR

Allahın haqq din kitabı olaraq endirdiyi Tövrat və İncil, zaman keçdikcə insan əliylə dəyişdirildikləri üçün indi haqq olma xüsusiyyətlərini itirmişlərdir. Necə ki, Quranın göndərilmə səbəblərindən biri də budur. Allah, Qurandan əvvəlki İlahi kitabların insan əliylə dəyişdirildiyini belə izah edir:

**Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!" – deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına! (Bəqərə surəsi, 79)**

**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" – deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar. (Ali İmran surəsi, 78)**

Tövrat və İncildəki təhriflər, bu kitablardakı təriflərə görə Allahı tanıyanların səhv inanclara sahib olmalarına gətirib çıxarmışdır. Dəyişdirilmiş Tövrat və İncildə, haqq din kitabını dəyişdirməyə cürət edə biləcək dərəcədə Allaha və dininə laqeydliyi və bəlkə də qəsdi olan insanların, Allahı (Allahı tənzih edirik) sanki bir insana bənzədərək əskiklikləri olan bir varlıq şəklində tanıtdırdıqlarını görərik. Halbuki əlbəttə ki, Allah hər cür əskik sifətdən münəzzəhdir. Allah bu mövzunu Quranda belə açıqlamışdır:

**And olsun ki, Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq; Bizə heç bir yorğunluq da üz vermədi. (Qaf surəsi, 38)**

**Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayan Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi? Sözsüz ki, O, hər şeyə qadirdir. (Əhqaf surəsi, 33)**

Yuxarıdakı ayələr Qurandan əvvəlki İlahi kitabların dəyişdirilmiş olduğunu açıq şəkildə göstərir. Bu səbəbdən, bu kitablara görə inanclara sahib olanların bir qisminin bu mövzularda səhv yollara sürükləndiyini və Allahı həqiqi xüsusiyyətləriylə tanımadıqlarını ortaya qoyur.

Quran isə, Allahın qoruduğu və heç bir şəkildə dəyişdirilməyəcəyi bildirilmiş, orijinal mətni indiki vaxtda mövcud olan müqəddəs Kitabdır. Quran, Allah qatında tək etibarlı din olan İslam dininin kitabıdır. Ayələrdə belə buyurulur:

**Heç şübhəsiz, zikri (Quranı) Biz nazil etdik Biz; onun qoruyucuları da həqiqətən Bizik. (Hicr surəsi, 9)**

**Kim İslamdan başqa bir din ardınca gedərsə, əsla ondan qəbul edilməz. O, axirətdə zərər çəkənlərdəndir. (Ali İmran surəsi, 85)**

Quranda, xristian və yəhudilərin Allah haqqındakı batil inancları da bildirilir və bu inancların əsli izah edilir. Məsələ,n bəzi xristianların inancının təməli olan "Allahın hz. İsa (ə.s)-ı oğul götürməsi" azğınlığı (Allahı tənzih edirik), Tam bir batil inanc və Allaha qarşı böhtandan ibarətdir. Bu həqiqəti xəbər verən ayələrdə belə buyrulur:

**Onlar dedilər: "Allah Özünə övlad götürmüşdür!" Halbuki O, pakdır, müqəddəsdir! Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona baş əyir. Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar.(Bəqərə surəsi, 116-117)**

Eyni mövzuda həqiqətləri bildirən digər bəzi ayələr isə belədir:

**Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: "Tanrı üçdür!" deməyin. Batil əqidənizə son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 171)**

**O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. (Ənam surəsi, 101)**

Yenə bəzi xristianların inancında Allah, ilk anda yaratdıqdan sonra hər şeyi öz halına buraxmış kimi təsvir edilir. Bu doğru deyil və azğın bir inancdır. Daha əvvəl də ifadə etdiyimiz kimi, Allah hər an yaradır və kainat davamlı olaraq Onun qüdrəti altındadır. Onun diləməsi və idarəsi xaricində yer üzündə heç bir hadisənin reallaşmasının mümkün olmadığı ayələrdə belə xəbər verilir:

**Məxluqatı əvvəldən yaradan, sonra onu yenidən dirildən, sizə göydən və yerdən ruzi verən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin" (Nəml surəsi, 64)**

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)**

Allah, bütün bu və hələ burada haqqında bəhs etmədiyimiz böhtanlara qarşı, Quranda üstün xüsusiyyətlərini təsvir etmişdir. Bu da, bəhs edilən, səhv inanclara sahib olanlara həm bir cavab olmuş, həm də onları Allahı doğru tanımağa yönləndirmişdir.

Hər kəs bilməlidir ki, Allah təkdir, Ondan başqa heç bir tanrı yoxdur, Onun bənzəri yoxdur, bütün əskiklərdən uzaqdır, müqəddəsdir, hər yeri əhatə etmişdir, hər şeyin tək sahibidir, hər an durmadan yaradar, insanlara çox yaxındır, hər şeyə qadirdir, sonsuz mərhəmət sahibidir, sonsuz ədalət sahibidir, din gününün (məhşər, hesab günü) sahibidir, hər şeyi görər, eşidər, bütün gözəl adların və vəsflərin sahibidir.

# ALLAHA ŞİRK QOŞMADAN İMAN ETMƏK

**Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? (Furqan surəsi, 43)**

Şirk, ərəbcədə "şərik qoşmaq" mənasını verir və Qurandakı mənası da Allah ilə birlikdə başqa bir ilah qəbul etməkdir. Bu, çox geniş mənadakı təsvir, təbii ki, yalnız totemlərə və cansız varlıqları büt edənlər üçün deyil. İnsan, özünü yaradan Allaha qul olmaq və yalnız Onun razılığını güdməklə məsul olduğu üçün, həyatını bir başqa məqsədə görə yaşaması da şirk olar. Məsələn, edilən işlərin qarşılığında Allahın deyil də, insanların razılığını güdmək şirkdir. Eyni şəkildə bir insanın həyatdakı məqsədinin Allahın razılığını qazanmaq deyil də, öz istək və ehtiraslarını təmin etmək olması da şirkdir. Bir çox insan bu şəkildə pullarını, vəzifə və mövqelərini, yüksəlmə ehtiraslarını, mal və mülklərini Allaha şirk qoşar. Quranda, Allaha şirk qoşan və Allahın yaratdığı əkin və heyvanların bir qismini bütlərinə ayıran müşriklərdən belə danışılır:

**Onlar Allah üçün Onun yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz batil iddialarına əsasən: "Bu, Allah üçündür, bu da şərik qoşduqlarımız bütlər üçündür" – deyirlər. Şərikləri üçün ayırdıqları pay Allaha çatmır, Allah üçün ayırdıqları pay isə şəriklərinə çatır. Onların verdikləri hökm necə də pisdir (Ənam surəsi, 136)**

Göründüyü kimi, müşriklər əllərindəki varlıqların bir qismini Allaha bir qismini isə bütlərinə həsr edir, ancaq sonra Allaha həsr etdiklərindən də təkrar öz bütlərinə pay alırlar. Bu, müşriklərin səmimiyyətsiz xarakterlərinin bir nümunəsidir.

İnsanların başqa bir varlığı Allahdan daha çox sevmələri və ya Allahı sevərcəsinə sevmələri də, Allaha şərik qoşmaqdır. Eyni şəkildə hər hansı bir varlıqdan və ya gücdən, Allahdan qorxan kimi qorxan adam, o varlığı və ya gücü Allaha ortaq qoşaraq, onun Allahdan müstəqil bir gücə sahib olduğunu zənn etməsi deməkdir.

İnananların iman etdikləri həqiqət isə, hər şeyi Allahın yaratdığı, bütün işləri Onun təşkil etdiyi, səbəblərin heç bir gücü olmadığı, hər hadisəni Allahın bir qədərə görə yaratdığı, iradənin və təqdirin Rəbbimizə aid olduğudur. Allahın Quranda bizə öyrətdiyi həqiqi iman budur. Bu həqiqətin xaricində bir xətt üzrə inanclara sahib olmaq, hər şeyin özbaşına, təsadüflər nəticəsində olduğuna inanmaq, səbəblərin etmə, yaratma gücü olduğunu zənn etmək də Allaha şirk qoşmaqdır. Allah, şirk qoşmağı bağışlamayacağını bir ayədə belə bildirir:

**Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür. (Nisa surəsi, 116)**

# DÜNYANIN BİR ÇOX YERİNƏ HAKİM OLAN GİZLİ ŞİRK

ADNAN OKTAR: *Şirki anlamaq üçün maddəni də yaxşı anlamaq lazımdır. Məsələn, mən sizinlə indi görüşürəm. Beynimdə Allah sizi yaradır. Çöldə sizin cisminiz varmı? Var, amma çöldə sizin cisminizi görsəm şəffafdır, bu səbəbdən görə bilmərəm. Həmçinin qaranlıqdır bayır, onsuz da heç görə bilmərəm. Həm də rəng də yoxdur. Rəng, işıq və cismin üçölçülü, yəni şəffaf olmayan görüntüsü beyində meydana gəlir, Allah yaradır. Bütün güc, qüdrət Allahın əlindədir.* **Buna görə, məsələn, mən indi danışarkən desəm ki; "Gözəl danışdım." Doğru olmaz, Allah gözəl danışdırdı. Məsələn, siz sual soruşdunuz. Gözəl sual soruşdunuz, xeyir. Allah gözəl sual soruşdurdu. Yəni buna iman gətirib həmişə yadımızda saxlayacağıq. Yəni küçədə də, çöldə də mənlik duyğusu olmamalıdır. Yəni "mən etdim" ən böyük şirk budur, hazırda dünyada hakim olan budur.** *Amma klassik şirk də var təbii, birbaşa bütə ibadət edirlər. Məsələn, insanı bütləşdirirlər, insana ibadət edirlər. Məsələn, hz. İsa (ə.s)-ı, Allah deyə ona ibadət edirlər. Məsələn, bu bir şirkdir. Hz. İsa (ə.s)-ın Allah olmadığı məlumdur. Bir çox insanı da əzaba sürümüş olurlar. Məsələn, Amerikada, İngiltərədə, Avropada böyük bir kütlə dinsiz oldu buna görə, yəni hz. İsa (ə.s)-a Allah dedikləri üçün. "Peyğəmbər" demiş olsaydılar, çox insan iman edə bilərdi. Daha çox xristian olardı. Yəni çox məntiqsiz gördükləri üçün iman edə bilmirlər, etmirlər. Amma şirkin təbii bütə sitayiş etmə şəklində olanı da var. (Adnan Oktarın Kanal 35 reportajından, 13 dekabr 2009)*

*ADNAN OKTAR: Müşrik, Allaha hər şeyi şirk qoşan insandır. Məsələn, bir şey olduğunda onu Allah etmədi, filankəs etdi deyirsə bir insan, bu şirkdir. Bir hadisə olduğunda onu Allahdan bilmirsə, əşyaya bağlayırsa bu da şirkdir. Bəzi insanlar pulu bütləşdirir, bəzi insanlar qadını bütləşdirir. Bütün həyatını o qadına həsr edir, ağlayır, intihar etməyə çalışır, rəzalət çıxardır, yerlərdə sürünür. Halbuki, o qadının məzardakı halını görsə, ağlının ucundan belə keçməz elə bir şey. Amma birtərəfli şərtləndikdə belə dəlilik və dəlilik tərzində nataraz rəftarlar göstərə bilir insanlar. Şirk, Allahın xaricində hər şeyə tabe olmasıdır insanın. Məsələn, bəzi insanlar cinlərə tabe olur, bəzi insanlar şeytana tabe olur, bəzi insanlar insana tabe olur. (Adnan Oktarın Tempo TV reportajı, 10 Mart 2009)*

# ALLAHIN BÖYÜKLÜYÜNÜ TƏQDİR EDƏ BİLMƏK

**Onlar, Allahın qədrini haqqıyla təqdir edə bilmədilər. Şübhəsiz ki, Allah yenilməz qüvvət sahibi, Qüdrətlidir. (Həcc surəsi, 74)**

Allah sonsuz qüdrətini və elmini mövcud olan hər varlıqda göstərir. İnsan bədəninin hər təfərrüatındakı mükəmməllikdə, çiçəklərin görünüşlərindəki, rəng və qoxularındakı gözəllikdə, səmanın və kainatın ehtişamında, planetlərin orbit nizamında, dənizlərin dərinliklərindəki balıqlarda və ağlınıza gələcək hər şeydə aydın görünən dizayn, nizam və mükəmməllik, Allahın varlığının və sonsuz gücünün çox açıq dəlillərindəndir. İnanmayanların bir qismi, Allahın varlığını və qüdrətinin sonsuzluğunu fərq etmələrinə baxmayaraq, təkəbbürlüklərindən ötrü inkar edərlər. Allahın böyüklüyünü tanımaq istəməzlər. Ağıl sahibi olmadıqları üçün Allahın varlığının və böyüklüyünün, bütün varlıqlarda görülən açıq dəlillərini görə bilməzlər. Bir ayədə, insanların içində olduqları bu qəflət belə bildirilir:

**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər. (Yusif surəsi, 105)**

Bu dəlilləri ancaq, ətraflarındakı varlıqların məqsədi və işarə etdikləri üzərində düşünən, mühakimə qabiliyyəti açıq, ağlını və vicdanını istifadə edə bilən insanlar görə bilərlər. Bunlar da iman edənlərdir. Möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri, dərin düşünə bilmələridir. Səmimi bir yanaşma ilə, azad bir ağılla və səthi olmayan bir düşüncə şəklinə sahib olan möminlər, bunun sayəsində, Allahın yaratmasındakı sənətini və gücünü görərək, Onun böyüklüyünü və qüdrətini təqdir edərlər. Bir ayədə, ağlını istifadə edən insanların Allahın ayələrini hər yerdə görə biləcəkləri belə açıqlanır:

**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır (Bəqərə surəsi, 164)**

Bunu qavrayan insan, baxdığı hər şeydə Allahın varlığının dəlillərini görər, Onun qüdrətinin izlərini seyr edər. İnsanların çoxu bu həqiqətləri heç düşünmədən, tamamilə boş bir ağılla yaşayarkən, mömin həmişə Allahı təfəkkür edər. Bir ayədə nümunəvi müsəlman rəftarı belə izah edilir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 191)**

# ALLAHIN SONSUZ BÜYÜKLÜYÜ Və QÜDRƏTİ

Allah, insanların Öz böyüklüyünü dərk etmələri üçün kainatdakı nizamı saysız incəliklə birlikdə yaratmışdır. Quranda Allahın bu quruluşundan bəhs edilərkən, **"... Allahın hər şeyə qadir və həqiqətən Allahın elmi ilə hər şeyi əhatə etdiyini biləsiniz"** (Talaq surəsi, 12) deyilir. Bu nizama elə təfərrüatlar daxildir ki, insan düşünməyə haradan başlayacağını bilmir. Çünki Allahın ağlı, elmi və qüdrəti sonsuzdur.

Allah elə böyük bir elmə sahibdir ki, insana görə "sonsuz" olan, Allahın qatında bitmiş vəziyyətdədir. Zamanın ilk yaradıldığı andan sonsuzluq anına qədər baş verəcək hər hadisə, hər düşüncə, vaxtları və şəkilləri ilə Allahın elmi ilə təyin olunmuş və bitmişdir. (Baxın. Zamansızlıq və Qədər Həqiqəti, Harun Yəhya). Bu həqiqət Quranda belə bildirilir:

**Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq. Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir. Biz neçə-neçə həmtaylarınızı məhv etmişik. Amma heç yada salan varmı? Onların etdiyi hər şey əməllərinin yazıldığı kitablarındadır. Hər bir kiçik və böyük əməl yazılmışdır. (Qəmər surəsi, 49-53)**

İnsan Allahın elminin böyüklüyünü gücünün çatdığı qədər daha çox qavraya bilməsi üçün ciddi səy göstərməli və düşünməlidir.

İnsanlıq tarixinin əvvəlindən bugünə qədər çox sayda insan yaşamışdır. Yəni Allah milyardlarla cüt göz, milyardlarla dəyişik barmaq izi, milyardlarla fərqli göz toxuması, milyardlarla dəyişik insan tipi yaratmışdır və əgər istəsə bu kəslərdən sonsuz sayda daha yarada bilər. Çünki ayədə xəbər verildiyi kimi; **"... O, məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir." (Fatir surəsi, 1)**

Allah, insanın heç bilmədiyi və sahib olduğu məhdud ağılla anlamaqda çətinlik çəkəcəyi daha çox şey yaratmağa qadirdir. Dünyada biz qullarına verdiyi hər şeyin xəzinələri Allahın yanındadır. Bizə yalnız dilədiyi qədərini, istədiyi miqdarla endirmişdir. Bir ayədə belə buyurulur:

**Heç bir şey yoxdur ki, onun xəzinələri Bizim dərgahımızda olmasın; ancaq onu müəyyən bir miqdar olaraq endiririk. (Hicr surəsi, 21)**

Allahın üstün yaratmasındakı bu həqiqət, bizim bildiyimiz və bilmədiyimiz bütün anlayışlar üçün keçərlidir. Necə ki, **"... və daha sizlərin bilmədiyiniz nələri yaradır?"** (Nəhl surəsi, 8) ayəsi ilə də Allahın bilmədiyimiz nə qədər şeylər yaratdığı xəbər verilmişdir.

Allah bizim görmədiyimiz bir çox aləmi və varlığı da yaratmışdır. Digər aləmlərin varlığını daha yaxşı anlaya bilmək üçün belə düşünə bilərik: Necə ki, bir şəkilə baxdığımızda yalnız en və uzunluq olmaq üzrə iki ölçü görürüksə, içində yaşadığımız dünyaya baxdığımızda da en, uzunluq və dərinlik olmaq üzrə üç (zamanı da sayarsınızsa, dörd) ölçü qavraya bilərik. Bundan artığını isə bilmərik. Halbuki, Allah Qatında bildiklərimizdən başqa ölçülər da yaradılmışdır. Məsələn, mələklər fərqli ölçülərdən birində yaşayan varlıqlardır.

Quranda bildirildiyi kimi, mələklər olduqları aləm və məkandan bizləri görə və eşidə bilərlər. Hətta iki tərəfimizdəki yazan mələklər hər anımıza şahiddirlər. Hər danışdığımızı, hər etdiyimizi yazırlar. Ancaq biz onları görə bilmirik. Allahın Quranda varlıqlarını bildirdiyi cinlər də yenə ayrı bir aləmə aid varlıqlardır. Onlar da eynilə insanlar kimi həyatları boyu sınanır və məsul olduqları kitab Qurandır. Ancaq sahib olduqları xüsusiyyətlər insanlardan çox fərqlidir. İnsanların bağlı olduqları səbəb-nəticə əlaqələrindən çox daha fərqli səbəblərdən asılı olaraq yaradılmışlar.

Bunlar Allahın yaratmasındakı bənzərsizliyi qavraya bilməsi üçün üzərində düşünülməli olan həqiqətlərdir. Allah sonsuz sayda kainat, sonsuz sayda varlıq, sonsuz sayda məkan yaratmağa qadirdir. Üstəlik, hər birini bir-birindən çox daha fərqli xüsusiyyətlərlə yarada bilər. Necə ki, Allah axirətdə cənnəti və cəhənnəmi yaradacaq. Cənnət və cəhənnəm bizim dünyada vərdiş etdiyimizdən çox daha fərqli bir yaradılışda olacaq. Məsələn, dünyada həmişə xarab olma, yaşlanma, çürümə, köhnəlmə və tükənmə kimi əskiklər vardır. Halbuki, cənnətdə sonsuza qədər davam edəcək zaman içərisində heç bir şey pozulmaz, xarab olmaz; Allahın Quranda bildirdiyi "dadı dəyişməyən süddən çaylar" cənnətin bu xüsusiyyətini xəbər verən nümunələrdən biridir. Cənnətdə insan bədəni də yaşlanmayacaq, qocalmayacaq. Allah Quranda cənnətdə hər kəsin yaşıd olduğunu bildirir və cənnət insanları sonsuza qədər ən gözəl hallarıyla, heç yaşlanmadan, bir-birləriylə yaşıd olaraq yaşayacaqlar. Allah Quranda tükənməyən qaynaqlardan içkilər olduğunu bildirir. Cəhənnəmdəki yaradılış da tam fərqlidir. Allah cəhənnəmdə, bənzəri görülməmiş əzab növlərini yaradacaq. Heç bir insan yaşamadan, oradakı əzabın necə olacağını təxmin edə bilməz.

Allah dünyadakı hər şeydə sərhəd yaratmışdır. Hər işin bir sonu vardır. Bu səbəblə "sonsuz" anlayışını və Allahın sonsuz qüdrətini anlaya bilmək üçün üzərində düşünmək və bilinən bəzi ölçülərlə müqayisə etmək lazımdır. Bizim sahib olduğumuz məlumat yalnız Allahın icazə verdiyi qədərdir. Allah qatındakı məlumat isə sonsuzdur. Məsələn, Allah dünyada insan üçün yeddi əsas rəng var etmişdir. Biz səkkizinci rəngi zehnimizdə canlandıra bilmərik. (Bu, doğuşdan kor olan birinə qırmızını təsvir etməyə bənzəyir. Nə deyirsək deyək, yenə də qırmızı rəngi tam olaraq ifadə edə bilmərik.) Halbuki, Allah daha çox sayda əsas rəng yarada bilər, amma biz Allahın bizə göstərdikləri xaricindəkiləri təsəvvür edə bilmərik.

Bütün bunlar, Allahın bizə dünyada öyrətdiyi məlumatlar istiqamətində inkişaf etdirilən fikirlərdir. Ancaq burada unudulmamalı olan əhəmiyyətli bir nöqtə vardır; Allahın gücü və böyüklüyü sərhədsiz olduğu üçün izah edilənlərin hamısının Allahın diləməsiylə istədiyi anda reallaşması mümkündür. Allah, elminin sonsuzluğunu Quranda belə bir örnəklə açıqlayır:

**Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də mürəkkəb olub ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Loğman surəsi, 27)**

Göründüyü kimi, biz nə qədər çalışsaq da, Allahın elmini qavramağa gücümüz çatmaz, çünki Allahın elmi sonsuzdur. Biz ancaq Allahın bizə icazə verdiyi qədərini qavramağa qadirik:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi 255)**

# CƏNNƏTDƏKİ MÜKƏMMƏL YARADILIŞ, ALLAHIN ÜSTÜN SƏNƏTİNİN TƏCƏLLİSİDİR

ADNAN OKTAR: ... *Möminlər nurdan paltar ilə örtülmüşlər, biz onu axirətdə görəcəyik, yəni üzərləri bağlı, lakin əhəmiyyətli xüsusiyyətlərdən biri ön qisimlərində bir işıq var, yəni ön tərəflərini işıqlandıran bir də sağ tərəflərini işıqlandıran bir işıq var. Bu onların möminlik əlamətidir, müsəlmanlıq əlaməti olacaq. Bir də onların yanında bir mehmandarları var, onların sürücüləri, onları aparan, onlara köməkçi olan birisi var, o da onların rahatlıq gözəlliyidir, yəni nə edəcəklərini, necə hərəkət edəcəklərini onlara daima bildirər, yəni ərazini tanıdar, yeri tanıdar. Amma hər insan, hər müsəlman mütləq cəhənnəmin kənarına gətiriləcəkdir. Hər kəs, mömin olsun olmasın, hər kəs gətiriləcək. Amma Allah möminləri göstərdikdən sonra; cəhənnəmi yaxından görərlər, çünki Quranda təsvir edilən bir yer olduğu üçün görməsələr olmaz, Allah onun üçün, başa düşməyimiz üçün deyirəm, əmək sərf etmişdir, elə deyilmi?*

*Bir qayğı göstərilmişdir orada. Amma baxın, Allahın əməyə və diqqətə ehtiyacı yoxdur, insanların anlaması üçün söyləyirəm və Quranda bu qədər ətraflı bəhs edilən bir yer mütləq görülməlidir, ona görə görəcəklər. Amma oradan möminlərin hamısı cənnətə aparılırlar və cənnətin qapıları bağlanır. Amma qapı deyilincə, insanların həmişə ağlına metal qapılar gəlir, elə deyil, bəlkə işıqdan qapılar, bəlkə heç bilmədiyimiz bir maddədən bir qapı. Yaxud birbaşa keçəcəklər, amma yalnız onların keçə biləcəyi məsələn, onlar divardan bəlkə birbaşa keçəcəklər, amma o bir qapı sayılacaq. Amma küfrün keçə bilməyəcəyi bir qapı olmuş olar. Yalnız möminlərin keçə biləcəyi, yəni çox təəccübləndirici bir nəticə ilə qarşılaşa bilərik, onun üçün belə geniş söyləyirəm.*

*Nə olduğu müəyyən deyil, orada görəcəyik.* **Amma möminlərin çox xoşuna gələn, yəni təxəyyül etdikləri, ən zövq aldıqları şeylərin olduğu yerdir cənnət**. *Amma məsələn, cənnətdə qızıldan köşklər var deyirsən, insanların ən çox ağlına gələn ən keyfiyyətli Amerikada düzəldilən köşkləri düşünərlər, ya da Fransada, hər halda elədir deyirlər, elə deyil. Taxta vəsait, kərpic filan yoxdur* **cənnətdə, yəni mükəmməl vəsait vardır, amma insanların bildiyi kimi bir vəsait deyil.** *Məsələn, köşklər şəffafdır, içi görünür cənnət köşklərinin, yəni içindən xarici, xaricindən içi görünər. Amma insanların istəyinə bağlı olar, istərsə görünməz hala gələr.*

*Məsələn, çox bədənli insan, minlərlə bədəni olar. Hansı bədəni haradadır, yoldaşlarından soruşub öyrənir insanlar. Bir bədəni bir yerdə, bir bədəni digər yerdə, bir bədəni peyğəmbərlərlə söhbət edir, bir bədəni yemək yeyir, bir bədəni yoldaşı ilə birlikdə, bir bədəni yoldaşının digər bədəni ilə birlikdə olar, məsələn, qadın da çoxala bilir, kişi də çoxala bilir. Məsələn, qadın istədiyi qədər gözəl qadın görünüşünə girə bilər, kişi də istədiyi gözəl kişi görünüşünə girə bilər. Yəni yoldaşların çoxalmasında bir sərhəd yoxdur, istədiyi qədər. Ağlından keçməsi kifayətdir, dərhal meydana gəlir.*

*Səid Nursi deyir: "İşıq sürəti ən sürətli hesab olunur, amma işıq yüksək sürət deyil" deyir. "Xəyal sürəti vardır" deyir "Cənnətdə". Məsələn, milyonlarla kilometr kənarda sırf düşündüyün an dərhal orada olarsan. Məsələn, indi buradan Günəşə getmək və ya Aya getmək işıq sürəti ilə getsən belə çox böyük zaman alar. Axirətdə belə deyil, dərhal istədiyin yerdə olarsan inşaAllah. Amma bu dünyada Allah çoxlu dəlil verir ki, anlamazlıqdan gəlməyək deyə. Məsələn, baxın, indi işıqla Allah buranı işıqlandırır, çöldə işıq varmı? Yoxdur. Necə işıqlandırır? Beynimizin içində, bilmirik Allahın xüsusi bir elmidir,*

*yəni işığın indiyə qədər izahı verilmədi. Yəni bir dalğa olduğu bilinir, amma biz işığı əslində parlaq işıq görürük elə deyilmi? Buna da işıq deyilir, bunun nə olduğu izah edilmədi indiyə qədər, yalnız beyinin şərhi deyilir, bu qədər. Məsələn, səsin dalğa olduğu bilinir, amma səsin qəbul edilməsi haqqında bir məlumat yoxdur, nə olduğu bilinmir. Yəni elmi olaraq bunun şərhi olmur. Səsin texniki xüsusiyyəti bilinir yalnız, səsin nə olduğunu indiyə qədər kimsə açıqlaya bilmədi. Məsələn, dad da həmçinin, dadın nə olduğu texniki olaraq izah edilir, amma dadın nə olduğu bilinmir. Yəni heç bir elmi şərh yoxdur bununla əlaqədar. Çünki insanın beyninin xaricinə çıxması lazımdır bunun üçün. Yenə çıxa bilməz, yəni ruh içində ruh olması lazımdır. Heç bir şəkildə olmaz ... Bu Allahın sirridir. Amma Allahın qanunlarını öyrənməyə imkanımız var təbii, yəni Allah hər cür elmi bizə əmr edir, elm Allahın qanunlarını öyrənməyimizi təmin edir. Yəni Allahın qanunlarını öyrənmək sənətidir onsuz da elm. (Adnan Oktarın Mavi Karadeniz TV reportajından, 1 dekabr 2009)*

# ALLAH SEVGİSİ VƏ ALLAH QORXUSU

**Allah: "İki məbuda sitayiş etməyin! O, yalnız Tək bir İlahdır. Yalnız Məndən qorxun!" – dedi. (Nəhl surəsi, 51)**

Allah qorxusu, bir möminin ən əsas xüsusiyyətlərindən biridir. Çünki insanın Allaha olan yaxınlığının və imanının artması, hər an ixlaslı davranması, gözəl əxlaq göstərə bilməsi və bunda sabit olması yalnız Allah qorxusu ilə mümkün olar.

Bəzi insanlar Allah qorxusunun mənasını bilmədikləri üçün, bunu digər bəzi dünyəvi qorxularla qarışdırarlar. Halbuki, arada çox böyük bir fərq vardır.

Quranın ərəb dilindəki orijinal mətnində Allah qorxusu üçün ''həşyət'' sözü istifadə edilər. Bu söz, çox dərin hörməti ifadə edər. Digər tərəfdən, Quranda dünyəvi qorxular üçün istifadə edilən söz "havf" dır. Bu söz, bir insanın yırtıcı bir heyvandan qorxması kimi sadə bir qorxunu ifadə edir.

Quranda sözlərlə ayrılan bu iki qorxunu, Allahın sifətlərini düşündükdə daha yaxşı anlaya bilərik. İnsanların sahib olduqları dünyəvi qorxular, ümumiyyətlə zalım insanlardan qaynaqlanan qorxulardır. Məsələn, insan bir caninin özünü öldürməsindən qorxar. Halbuki, Allah qorxusu fərqlidir. Allah sonsuz şəfqət, mərhəmət və ədalət sahibidir. Bu səbəbdən, Allah qorxusu, sonsuz şəfqət, mərhəmət və ədalət sahibi olan Allaha qarşı səmimi bir hörmət, Onun razılığına zidd gəlməkdən çəkinmə və Ona üsyan edib əzabına layiq olmaqdan imtina etməkdir.

Bu fərqi, Allah qorxusunun insanda səbəb olduğu təsirlərdən və nəticələrindən də anlaya bilərik. Dünyəvi qorxuların nəticəsində, məsələn, zəruri təhlükə ilə qarşılaşıb qorxuya qapılan biri, ilk olaraq çaxnaşmaya qapılar, nə etməli olduğu ilə əlaqədar doğru qərar verə bilməyəcək vəziyyətə gələr, ağlını istifadə edə bilməz, həll yolu tapa bilməz, ümidsizliyə qapılar və çarəsiz vəziyyətə düşər. Halbuki, Allah qorxusu, insanın ağlını və vicdanını hərəkətə keçirər. İnsan, Allah qorxusu sayəsində, pisliklərdən və səhvlərdən uzaq durar, özünü maddi və ya mənəvi olaraq yaralayacaq təhlükələrdən xilas edər. Allah qorxusu, insana ağıl və bəsirət (hadisələrin iç üzünü görmə gücü) qazandırar.

Bir Quran ayəsində, insanların Allah qorxusu sayəsində ağıl və anlayış qazandıqları belə bildirilir:

**Ey iman gətirənlər, Allahdan qorxsanız, sizə doğrunu səhvdən ayıran bir nur və anlayış (furqan) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük fəzl sahibidir. (Ənfal surəsi, 29)**

Dünyəvi qorxular, insana əzab verər. Allah qorxusu isə mənəvi cəhətdən çox böyük bir qüvvə qazandırmaqla yanaşı, ona böyük bir zövq verər.

İnsan, Allah qorxusu sayəsində, özünə Allahın sevgisini itirdəcək pisliklərdən çəkinmiş olar. Məsələn, bir ayədə, **"Allah özünü öyənləri və lovğalıq edənləri sevməz"** (Nisa surəsi, 36) şəklində buyrulur. Allah qorxusu olan insan özünü bəyənib təkəbbürlənməkdən şiddətlə çəkinər. Beləcə, Allahın sevgisini qazanacağını ümid etdiyi bir hərəkət etmiş olar. Məhz bu səbəblə, Allah qorxusu və Allah sevgisi bir-birindən ayrılmaz.

Əslində Allah qorxusu, insanın Allaha yaxınlaşmasının və Onun sevgisini qazanmasının önündəki maneələri qaldırar. Bu maneələrin başında da insanın öz nəfsi gəlir. Quranda Allahın bizə bildirdiyinə görə, insanın nəfsində həm pislik, həm də ondan çəkinmə duyğuları vardır. Bunu xəbər verən ayələrdə belə buyrulur:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Məhz insana nəfsindəki bu pisliklə mübarizə aparması, ona təslim olmaması üçün mənəvi bir qüvvə tələb olunur. Bu qüvvə, Allah qorxusudur. Allahdan qorxan insan, nəfsinin eqoist ehtiraslarına əsir olmaz. Allaha qarşı olan dərin hörməti sayəsində, Onun razılığına zidd düşüncələrdən və işlərdən uzaqlaşar. Bir ayədə, ancaq Allah qorxusuna sahib olan insanların, özlərinə din mövzusunda edilən xəbərdarlıqlardan istifadə edə biləcəkləri bu cür bildirilir:

**Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ. (Yasin surəsi, 11)**

İnsanın səyi, Allah qorxusunu artırmağa istiqamətli olmalıdır. Bunun üçün, Allahın yaratdıqları üzərində dərin düşünərək, onların təfərrüatlarına qədər enən bənzərsiz sənəti və qüdrəti görməli və Allahın böyüklüyünü hər düşündüyündə daha çox qavrayaraq, Ona qarşı duyduğu hörmət dolu qorxunu, gücü nə dərəcəyə çatırsa, o qədər artırmalıdır. Necə ki, Allah bizlərə Quranda bu cür buyurur:

**Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün! (Ali İmran surəsi, 102)**

**Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır. (Təğabun surəsi, 16)**

Allah qorxusu artdıqca, mömininin sevgi mövzusundakı həssaslığı da artar. Allahın yaratdığı varlıqlardakı gözəllikləri daha yaxşı fərq edər. İnsanlara, təbiətə, heyvanlara və hər şeydəki estetikaya Allahın gözəl xüsusiyyətlərinin təcəllisi olaraq baxma qabiliyyəti qazanar. Bu, ətrafındakı hər şeyin özü üçün bir nemət olaraq yaradıldığını daha yaxşı görməsini təmin edər. Bu səbəbdən, həm bu nemətlərə qarşı, həm də bu nemətləri yaradan Allaha qarşı sevgisi eyni nisbətdə artar.

Bu sirri qavrayan insan, Allah sevgisini də qavramışdır. Hər şeydən çox Allahı sevər və sevdiyi digər varlıqların da Allahın bir təcəllisi olduğunu bilər. Onları da Allah rizasına uyğun olaraq sevər; Allaha itaətli olan möminləri sevər, Allaha qarşı düşmən olanlara isə qəlbində soyuqluq olar.

İnsanı xoşbəxt edən, ona sevinc və hüzur verən həqiqi sevgi, bu izah etdiyimiz Allah sevgisidir. Bunun xaricində olan və Uca Rəbbimiz Allahdan başqa varlıqlara yönəldilən sevgilər, Qurandakı ifadə ilə Allaha şirk qoşanların sevgisidir ki, insanlara hər zaman əzab, hüzn, sıxıntı və narahatlıq verər. Bir Quran ayəsində müşriklərin bu sevgisi ilə möminlərin Allah sevgisi belə müqayisə edilmişdir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür.... (Bəqərə surəsi, 165)**

# YALNIZ ALLAHI QƏLBƏN SEVƏNLƏR, HƏQİQİ SEVGİNİ BİLƏR VƏ YAŞAYAR

ADNAN OKTAR: *Allah insanları bu cür, odla imtahan edər, çətinliklə imtahan edər. Keyfiyyətli, ağlı başında, igid, dürüst, səmimi insanlar əsla təsirlənməzlər, davamlı Allaha sədaqətini davam etdirərlər. Allaha daima hüsni-zənn edərlər. Allaha bir dəfə inanılar. Bir dəfə dost olunar.* **Bir dəfə eşqlə, dəlicəsinə sevilər və bir daha sonsuza qədər buraxılmaz. Hər nə olursa, olsun. Qolun qopar, ayağın qopar, o biri ayağın qopar, gözünü çıxardarlar, burnunu qopararlar, elə eşqlə "Allah" deyərsən.** *İman budur. Allah sevgisi budur. Bunun xaricindəkilər iman olmaz, inşaAllah. Sevirsə tam bağlıdır. Məsələn, bunu insan həyatında da görürük. Deyirlər ki, "ölürəm, ürəyim gedir", evlənirlər. Məhz eşq deyirlər, "bayıldım ..." İnsan deyir ki, "mən iflas etdim." Aman, hadisə tamamilə tərsinə dönür. Bir anda eşqi köşkə çevrilir. "Daha mənə icazə" deyir. Bir başqasının göstərdiyi, məsələn köşk, filan varsa, o tərəfə doğru gedir. Baxın, bu bir vicdansızlıqdır. İnsan sevdiyini öldüyü günə qədər tərk etməz. Əsla. Məsələn, mənim sevdiyim birisi olacaq, mən də onu buraxacağam? Əsla. Ən şiddətli çətin anlar olsa belə buraxılmaz, ən şiddətli. Yeri, göyü inlədər Allah deyə, yenə buraxmazsan. İnşaAllah. Əksi hiyləgərlikdir, vəfasızlıqdır. Nəinki onu, məsələn qadını, qızı makiyajsız görər, bitər insan üçün. Yəni o qədər sadədir. Məsələn, qrip, soyuqdəymə olar, onun yorğun, əldən düşmüş halını görər, o da bitər. Məsələn, dünyaya uşaq gətirər, doğum onu çökdürər, dəyişər doğum səbəbindən. Doğumdan sonra boşanmalar həddindən artıq çoxdur diqqət etsəniz. Məsələn, baxın, boşanmalara diqqət edin həmişə, doğumdan sonrası və ya qəza sonrasıdır. Məsələn, üzünə bir şey olar. Qardaşım necə vicdan bu, insan buraxarmı? O sənin parçan. Allah sənə onu əmanət etmiş. Deyilmi? Sonsuza qədər buraxılmaz. Onsuz da cənnətdə ən gözəl halıyla sənin yanına gələcək. Onsuz da bir insan neçə il gözəl qala bilər, bir qadın. Onsuz da yaşlanacaqdır. Qocalıq gözəlliyi gələcək, yəni o mənada qadına xas xüsusiyyəti gedəcək, deyilmi, insani gözəlliyi gələcək. Və o halıyla onu sevməlisən. Əksi zülmdür. O da Allahın bir quludur. Yəni sənin üçün 24 saat belə mismar kimi dümdüz necə dursun o. İnsandır o yəni. Bağışlamırlar elə bir şeyi.* **Məhz bu vəfasızlıqdır. Allah eşqiylə sevən onu hər vəziyyətdə sevər. Çünki dərin bir sevgidir Allah eşqi. Yəni bitmək tükənmək bilməyən bir sevgi vardır. Hər nə olursa olsun. Məsələn, əli üzü yanar daha da şəfqətlə sevərsən.** *Qolu qopar daha şəfqətlə sevərsən. Diqqət edin, məsələn, yaralananda, şikəst olanda mütləq boşayarlar. Bu necə vicdandır, insan necə qıyar? Məsələn, yolda insan rastlaşsa, 20 ilini vermisən, 10 ilini vermisən, insanın içi parçalanar. Mümkünmü? Təxəyyül belə edə bilmirəm yəni. Çox qorxunc bir şeydir. Məhz bu ancaq Allah sevgisi, Allah qorxusu və dərin imanla meydana gələ biləcək bir şeydir. Dərin iman olmadan; mən bəzi manekenlərdən filan görürəm açıqlama verirlər. Məhz ehtirasla sevirəm mən, eşqi xoşlayıram mən. Heç bir şey də bildiyin yoxdur. Pulu kim verirsə, ona gedirsən. Aydındır yəni, kim varlıdırsa o tərəfə dönər. Ehtirasda, eşqdə belə şey olmaz. Dəli aşiq bunları düşünməz. Onun-bunun hesabını etməz.* **Yalnız Allahın təcəllisi olaraq eşqlə sevər və əsla da buraxmaz, əsla.** *Ölümünə buraxılmaz. Müsahibə verirlər məsələn, baxıram, kaş ki, bilsələr eşqi. Kaş ki, ehtirası bilsələr. Amma üslubundan anlayıram bilmədiyini. Yəni yazının məzmunundan aydın olur. Çünki Allahdan heç bəhs etmir. Allahdan bəhs etmədən necə eşqi yaşayırsan sən, ehtirası yaşayırsan. Məhz məsələn, adamın altında Jaguar avtomobili görür. Clark Gable kimi aşağıya enirlər, onun kimi bığı, cibi dollarla dolu və s. Könlündə fırtınalar qopduğunu, pərişan olduğunu, bir anda şəhərin*

*axınına qapılmış kimi vurulduğunu" filan söyləyir. Sonra bir yol qəzası keçirir, maşın gedir, əli, üzü yaralanır insanın. İnsanın eşqi, köşkü dərhal yerlə bir olur, uçur. Çünki saxta eşqdir o. Allah eşqində, Allah ehtirasında bu daha da coşar. Məsələn, insanın həyat yoldaşının şikəst olduğunu düşünün, yəni qolu qoparsa ... İnsan qat-qat, onu dəli kimi sevər. Çünki mərhəmət hissi də dövrəyə girmiş olur. Şəfqət hakim olmuş olur. Şəfqət çox ləzzətli bir şeydir. Çox zövqlüdür şəfqət. Deyilmi? Tamam ayrı bir zövqdür. Məsələn, kiçik bir uşağa biz şəfqət hiss edirik, özünü qoruya bilmir. Yazığımız gəlir. Mərhəmət hiss etdiyimiz üçün də şiddətli zövq alırıq. Məsələn, ona sarılmaq tamam ayrı bir zövqdür. Şiddətli bir zövqdür, yəni bir insana duyulan sevgiylə bu müqayisədə tamam ayrı bir şeydir, onun şiddəti çox yüksək olur. Məsələn, bir dovşan belə özünü qoruya bilmədiyi üçün, kiçik bala bir dovşan, insan onu canlı-canlı yeməyi gəlir hətta. O qədər çox sevər. Şəfqətin insanın ruhunu sanki parçalamasıdır bu, məhz; yəni təzyiq meydana gəlir insan ruhunda. Sevgisini ifadə edə bilmir. İfadə edə bilməyincə nə etsin, sevirsən, daha çox əzizləsən Allah əsirgəsin zədələyərsən. Çarəsiz qalırsan, sadəcə baxırsan başqa edəcək bir şey yoxdur. (Adnan Oktar, Çay TV reportajından, 1 oktyabr 2009)*

# QURAN YOL GÖSTƏRİCİDİR

**Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. (Bəqərə surəsi, 2)**

Quran Allahın sözüdür. Allah, Özünü tanıtmaq, insanların yaradılış məqsədini bildirmək, dünyanın mahiyyətini, imtahanın xüsusiyyətlərini və insanlardan nələr istədiyini xəbər vermək, axirəti müjdələmək və gözəl əxlaqı təsvir etmək kimi bir çox hikmət üzərinə Quranı nazil etmişdir. Cəbrayıl vasitəsiylə hz. Məhəmməd (s.ə.v)-ə vəhy olunan Quran, son kitab olması etibarilə, qiyamətə qədər keçərli olacaq və insan əlinin əsla müdaxilə edə bilməyəcəyi bir kitabdır. Allah, Quranın mühafizə altında olduğunu bir ayədə belə xəbər verir:

**Heç şübhəsiz, zikri (Quranı) Biz nazil etdik Biz; onun qoruyucuları da həqiqətən Bizik. (Hicr surəsi, 9)**

Quranın bənzərsiz üslubu və ehtiva etdiyi üstün hikmət, onun sonsuz elm sahibi Rəbbimiz Allahın sözü olduğunun qəti dəlilidir. Bunlarla bərabər, Quranın Allah qatından endirildiyini isbat edən xeyli çox möcüzəvi xüsusiyyəti də vardır. Bu xüsusiyyətlərdən biri, XX və XXI əsr texnologiyasıyla əldə etdiyimiz bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda bildirilmiş olmasıdır. Quranın endirildiyi dövrdə elmi olaraq müəyyən olunması mümkün olmayan bu məlumatlar dövrümüzdə insanlara Quranın Allah sözü olduğunu bir daha isbat etmişdir.

Quranın bir başqa əhəmiyyətli xüsusiyyəti isə, (təhrif edilmiş Tövrat və İncilin əksinə) içində heç bir ziddiyyət olmamasıdır və bu da Quranın Allah sözü olduğunun bir başqa isbatıdır, Allah bu həqiqəti insanlara belə xatırladır:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)**

Quran insanlar üçün yol göstəricidir. Eyni zamanda doğru ilə yanlışı bir-birindən ayıran mütləq doğru ölçüdür ki, bu səbəblə, Quranın bir adı da "Furqan", yəni "ayırd edən" dir:

**... Doğrunu yanlışdan ayıran (Furqan)ı da endirdi. Həqiqət budur ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır... (Ali İmran surəsi, 4)**

Quran; insanlara öyüd-nəsihət verən, sonsuz axirət həyatları üçün onları xəbərdar edən bir kitabdır:

**Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 52)**

Quran, Allahın endirdiyi son və qiyamətə qədər keçərli olacaq tək haqq kitabdır. Allahın bundan əvvəl nazil etdiyi Tövrat və İncil də endirildikləri dövrlərdə haqq kitab olmalarına baxmayaraq, əvvəlki səhifələrdə də izah etdiyimiz kimi sonradan insan əliylə əlavə və çıxarılmalar edilərək dəyişdirildiyi üçün, hal-hazırda keçərli olma xüsusiyyətlərini itirmişlər. Allah, Öz Qatında İslamı tək keçərli din olaraq qəbul etdiyini də bir ayədə belə bildirmişdir:

**Kim İslamdan başqa bir din ardınca gedərsə, əsla ondan qəbul edilməz. O, axirətdə zərər çəkənlərdəndir. (Ali İmran surəsi, 85)**

# ALLAHIN ENDİRDİYİ KİTABLARA Və PEYĞəMBəRLəRİNə İMAN

İlk insan olan hz. Adəm (ə.s) ilə birlikdə, Allah, bütün cəmiyyətlərə Allahın və axirətin varlığını izah edən, dinini təbliğ edən elçilər göndərmişdir. Bunların bir qismi, Quranda adla zikr edilən və özlərinə kitab nazil olan peyğəmbərlərdir. Bu peyğəmbərlərin hamısını da müsəlmanlar, haqq din peyğəmbəri kimi qəbul edərlər. Bir müsəlman peyğəmbərlər arasında heç bir ayrı-seçkilik etmədən hamısını sevməli və saymalıdır. Bir ayədə, Allah müsəlmanlara bütün peyğəmbərlərə aralarında heç bir ayrı-seçkilik etmədən iman etməyi belə əmr etmişdir:

**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)**

Yaşadığımız dövrdə insanların məsul olduğu kitab Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə nazil olan Qurandır. Çünki Quranda da xəbər verildiyi kimi, köhnə haqq din kitabları sonradan insan əliylə, Allah sözü olmayan əlavələr və çıxarılmalar edilərək dəyişdirilmişdir:

**Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!" – deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına! (Bəqərə surəsi, 79)**

Bu səbəblə İslam dinini, Allah son haqq din olaraq göndərmişdir. Allah bir ayədə belə buyurur:

**... Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizə din olaraq İslamı bəyənib seçdim ... (Maidə surəsi, 3)**

Quranda hz. Məhəmməd (s.ə.v)-in son peyğəmbər olduğu da belə bildirilmişdir:

**Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir; ancaq o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah, hər şeyi biləndir. (Əhzab surəsi, 40)**

Bu səbəbdən, hz. Məhəmməd (s.ə.v)-in göndərilişindən qiyamətə qədər bütün insanların tabe olacağı olan din: Peyğəmbərimiz (s.ə.v)-in çağırdığı haqq din olan İslam və onun kitabı Qurandır.

# MƏLƏKLƏRƏ İMAN

Mələklər, Quranda bizə bildirildiyi üzrə, Allahın əmrlərini yerinə yetirən qullarıdır. Allah onlara fərqli vəzifələr vermişdir. Vəhy endirən Cəbrayıl ilə yanaşı, insanın iki yanında, etdiklərini yazan mələklər; axirətdə, cənnətdə insanları qarşılayan mələklər və cəhənnəmin gözətçiləri olan mələklər; insanın canını alan mələklər, möminlərə dəstəkçi olan mələklər; elçilərə, olduqları cəmiyyətə Allahın əzabını xəbər verən mələklər, elçilərə uşaq müjdələyən mələklər vardır. Mələklərin, itaətkar, həmişə Allahı təqdis edən, ucaldan varlıqlar olduqları bir ayədə belə xəbər verilir:

**Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə qılırlar. (Nəhl surəsi, 49)**

Mələklər tarix boyunca insanlara Allahın əmrlərini çatdırmışlar. Bir çox peyğəmbərə və hətta hz. Məryəm kimi peyğəmbər olmayan saleh insanlara da mələklər insan görünüşündə gəlmiş, onlara Allahın əmrlərini və hikmətlərini xəbər vermişlər. Bu mövzudakı məlumatları Allah bizə Quranda bildirmişdir. Buna görə, mələklərə iman, Qurana və dinə imanın bir şərtidir. Bir ayədə, mələklərə imanın bir mömin xüsusiyyəti olduğu belə izah edilİr:

**Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. Onlar dedilər: “Biz Onun elçiləri arasında fərq qoymuruq!” Onlar dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir! (Bəqərə surəsi, 285)**

# DÜNYA HƏYATININ KEÇİCİLİYİ

Dünya həyatı, insanlar üçün bir imtahan yeridir. Allah dünyada insana cazibədar gələn müxtəlif nemətlər yaratmış, ancaq bunların cazibədarlığına qapılıb Allahı və dini unutmamaları üçün də insanları xəbərdar etmişdir. Ayələrdə dünya həyatındakı bəzəklərin aldadıcı olduğu və əsil gözəlliyin Allahın razılığı və cənnəti olduğu belə xəbər verilir:

**Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək. (Kəhf surəsi, 7)**

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Mömin də dünyadakı nemətlərdən faydalanar, ancaq inkarçılardan fərqli olaraq bu nemətləri həyatının məqsədi olaraq görməz. Bunlara sahib olmağı istəyə bilər, amma yalnız Allaha şükür etmək və Onun rizası üçün xeyirdə istifadə etmək qəsdiylə bir vasitə olaraq görər. Bunların arxasından ehtirasla getməz. Çünki, dünya nemətlərinin öz həyatı kimi keçici olduğunu bilir. Öldükdən sonra, malının özünə heç bir fayda verməyəcəyini, hətta onlara qapılıb, dünyəvi ehtirasları məqsəd edib, yalnız zövqünü təmin etmək üçün yaşamağa çalışsa axirətini itirəcəyini bilir.

Bir ayədə bu əhəmiyyətli sirr belə xəbər verilir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Dünya bəzəyi, imtahan səbəbi olması səbəbiylə, xüsusilə nəfsə xoş gələcək şəkildə cazibədar ola bilər. Xarici görünüşündəki bu cazibədarlıq ünsürünü, şeytan insanı aldatma vasitəsi olaraq istifadə etməyə çalışar. Möminlər, xoşlarına gəlsə belə, bunların həqiqi mahiyyətlərini anlamış insanlardır. Hamsının dünyaya aid müvəqqəti nemətlər olduqlarını və bunlarla sınandıqlarını bildiklərindən, həmçinin bu nemətlərin əsillərinə, sonsuz olaraq cənnətdə sahib olmağa talib olduqları üçün bunların cazibədarlığına aldanıb axirətlərindən üstün tutmazlar. Beləcə, şeytanın tələsinə düşməzlər və sonsuz əzabdan xilas olarlar. Allah Quranda insanları bu mövzuda belə xəbərdar edir:

**Ey insanlar! Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu dünya sizi aldatmasın, tovlayan şeytan da sizi yoldan çıxartmasın. (Fatir surəsi, 5)**

İmanı və buna görə də ağlı olmayanlar isə, şeytanın təsiri altına girmiş olduqlarından ötrü, bu bəzək və cazibədarlığın cazibəsinə qapılaraq dünyanın müvəqqəti bəzəklərini əldə etməyi həyatlarının məqsədi halına gətirərlər. Allah, bu kimi insanların vəziyyətini bu cür təsvir edir:

**Xeyr! Əksinə, siz tez ötüb keçən fani dünyanı sevir, Axirətdən isə uzaqlaşırsınız. (Qiyamət surəsi, 20-21)**

# "DÜNYANIN ƏN GÖZƏL TƏRƏFİ ALLAHI SEVMƏKDİR"

ADNAN OKTAR: *Fövqəladə bir mühitdəyik. Biz buraya əylənməyə, sadəcə çoxalmağa, mal-mülk sahibi olmağa gəlməmişik. Mal-mülk sahibi belə olmuş olsa, on illər belə bir il kimi keçir. Qısa müddətdə nəticə olur. Məsələn, qırx yaşındakı gənc qadınlar bu an seyr edən kəslərə soruşsanız, qırx yaşındakı insanlara daha dünən kimi gələcək gəncliklər. Yəni ani gəlmişlər 40 yaşına. Məsələn, 60 yaşında olanlar üçün də dünən kimidir. Yəni ağılsığmaz bir sürətlə gəlmiş o yaşa. Amma gənc olanlar zənn edirlər ki, çox uzun müddət yaşayacaqdır. Halbuki, heç də elə olmur, görəcəklər. Qısa müddətdə bu iş bitir. Dərhal arxasından xərçənglər, xoralar, ürək xəstəlikləri dövrəyə girir. Xəstəxanalarda onlarla boğuşurlar. Onsuz da qırx yaş əlli yaş arası, xərçəngin, mədə xəstəliklərinin, ürək xəstəliklərinin ən sıx müşahidə olduğu dövrlərdir. Artıq ondan sonra ölüm dövrü başlayır insanlar üçün. Artıq ölümə qarşı müqavimət göstərir, ölməmək üçün çalışırlar. Dərmanlarla, müalicələrlə, cəhdlərlə zorla özlərini yaşatmaq üçün çalışırlar. Yəni normal halına buraxsaydılar öləcəklər, lakin müqavimət göstərirlər ölümə. Belə yaşamağa çalışırlar. Halbuki, bir fövqaladəlik var.* **"Mən yalnız imtahan üçün və mənə qul olmanız üçün göndərdim"** *deyir Allah. Bunu israrla anlamaq istəmirlər. Yəni dünyada nə var, deyilmi? Min bir əziyyətlə yemək əldə edirlər. Min bir əziyyətlə o yeməyin sıxıntısını yaşayırlar, sonra da. Hər gün duş qəbul etmələri lazımdır, elə deyilmi? Hər gün özlərinə baxmaları lazımdır. Məsələn, bir qadın özünə baxmazsa, pərişan olar. Bir kişi də özünə baxmadıqda pərişan olar. Günün səkkiz saatı yuxuyla keçir hardasa, yarısı, yəni deyilmi? Səkkiz saatı yuxuyla keçir, səkkiz saatı də işlə keçir. Ondan artıq qalanı da yeməyə, ona-buna ayırırlar, məhz duş qəbul etməyə vaxt ayırırlar. Gün çatmır. Hətta bir çox yeməyi ayaq üstə yeyirlər. Məsələn, buterbrod alıb yeyir vaxtı çatmadığı üçün. Bu qaçaqaç içərisində yenə dünyaya çox düşkün olar bir çox insan. Yəni sanki dünyadan çox əcaib bir şey qazanacaqlarmış kimi. Dünyada bir şey yoxdur.* **Dünyanın ən gözəl tərəfi Allahı sevməkdir, Allah eşqidir, ehtirasla Allaha bağlanmaqdır, Allahın hökmlərini, Quranın hökmlərini çox sevməkdir. Allahın hökmlərini yerinə yetirmək çox ləzzətlidir. Din əxlaqından güzəştə getməmək məsələn, çox zövqlüdür. Qurandan əsla güzəştə getməmək çox zövqlü bir hadisədir. Qurana möhkəm-möhkəm sarılmaq çox zövqlüdür. Ayrı bir dərinliyi vardır, ayrı bir xüsusi zövqü vardır, müsəlmanların bildiyi xüsusi bir zövqdür.** *Allahı eşq ilə ehtirasla sevmək onsuz da böyük bir nemətdir və eşqlə, ehtirasla Allahı sevdiyində insanları da o zaman biz eşqlə, ehtirasla, Allah rizası üçün sevərik. Allahın təcəllisi olaraq sevərik. O zaman da o bizdə dərin və şiddətli təsir meydana gətirər. Yoxsa insanda bir şey yoxdur ki. Yəni zülal, sümük, bağırsaq, qaraciyər, dalaqdan filan meydana gəlmiş bir ət yığını, yəni bir şey yox insanda. Allahın təcəllisi olduğu üçün bu qədər şiddətli sevirik. Yəni bu ehtirasın səbəbi Allahın təcəllisi olmasıdır. Allah çünki bizə insan şəklində təcəlli edir beynimizdə, bu şəkildə görürük. Allahı sevdiyimiz üçün insanı sevirik biz. Yoxsa o biri cür insan bizim üçün heç bir şey ifadə etməz, dünya da heç bir şey ifadə etməzdi. Dənizlər bizi qorxudardı, dağlar qorxudardı, hətta insan da qorxudardı. İnsanı gördükdə insan qaçacaq yer axtarardı. Yəni heç bir şey ifadə etməyəcəkdi. Allahı sevdiyimiz üçün, içimizdəki bu eşq və ehtiras hissi şiddətli olaraq ruhumuzda var. Çünki Allah sonsuz gözəldir, bizə də sonsuz eşq ruhu vermişdir. O dövrəyə girdiyində mömin olduğunda şəxs, məhz cənnəti eşqlə sevər. Cənnətin ağaclarını eşqlə sevər, cənnətin bitkilərini, insanlarını, oradakı vildanları, huriləri hamısını eşqlə sevər, Allah eşqiylə sevər. Bu səbəbdən çox zövq alar. Yoxsa bir dinsizi götürsən cənnətə qoysan sıxılar adam darıxar. Cənnət köşkləri onun üçün heç bir şey ifadə etməz.*

*Cənnətdəki insanlardan da narahat olar. Yəni ancaq imanla bu zövqlü olar. (Adnan Oktarın Maraş Aksu TV reportajı, 28 yanvar 2010)*

# İNSAN İMTAHAN OLUNUR

Allah, hər şeyi hikmətlə yaratmışdır. Kainatdakı bir çox şeyi də insanın xidmətinə vermişdir. Günəş sistemindən atmosferdəki oksigen nisbətinə, ətindən, südündən faydalandığımız heyvanlardan suya və daha nə qədər kainatdakı bir çox varlığın insanın həyatına xidmət edəcək şəkildə yaradıldığı açıq şəkildə görünür. Bu həqiqət ortadaykən, insan həyatının bir məqsədi olmadığını düşünmək, böyük bir cəhalət və ağılsızlıq olar. Əlbəttə insanın da bir yaradılış məqsədi vardır və Allah bu məqsədi belə izah edir:

**... İnsanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zəriyət surəsi, 56)**

Ancaq insanların yalnız az bir qismi bu yaradılış məqsədini qavrayar və buna uyğun olaraq yaşayar. Allah dünya üzərindəki həyatımızı isə, bu məqsədə uyub-uymadığımızı sınamaq üçün yaratmışdır. Allaha könüldən qulluq edənlərlə Ona üsyan edənlər bu dünyada ayırd ediləcəkdir. İnsana verilən bütün imkanlar (bədəni, duyğuları, malları ...) bu imtahan üçündür. Bir ayədə Allah belə buyurur:

**Şübhəsiz ki, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik. Bundan ötəri onu eşidən və görən etdik. (İnsan surəsi, 2)**

İnsanın dünyadakı vəzifəsi, Allaha və axirətə iman etmək, Quranda ifadə edildiyi şəkildə gözəl əxlaq sahibi bir insan olmaq, Allahın sərhədlərini qorumaq və Onun razılığını qazanmağa çalışmaqdır. Bunları kimin edəcəyini isə ancaq yaşadığımız bu dünya həyatındakı imtahan nəticəsində görə biləcəyik. Çünki Allah insanlardan həqiqi və səmimi bir iman istəyir. Bu isə insanın yalnız "mən inandım" deməsi ilə əldə edilməsi mümkün olmaz. İnsan, Allaha və Onun dininə həqiqətən inandığını, şeytanın özünü azdırmaq üçün göstərəcəyi böyük səylərə baxmayaraq doğru yoldan dönməyəcəyini göstərməlidir. Eyni şəkildə inkarçılara uymayacağını, öz nəfsinin ehtiraslarını Allahın razılığından üstün tutmayacağını da isbatlamalıdır. Bunu isə qarşılaşdığı hadisələrə verdiyi reaksiyalarla ortaya qoyacaq. Allah, dini qəbul edən insanın qarşısına səbir etməli olan bəzi çətinliklər çıxaracaq, bunlara qarşı göstərdiyi rəftarlarla onu imtahan edəcəkdir. Bu həqiqət, Quran ayələrində bu şəkildə izah edilir:

**İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!” – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? (Ənkəbut surəsi, 2)**

**Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cihada çıxanları və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız? (Ali İmran surəsi, 142)**

Həqiqət bu ikən iman edən bir insanın qarşılaşdığı çətinliklərə təəccüblənməsi, əlbəttə, doğru olmaz. Bu çətinliklər gündəlik həyatın sanki adi kimi görünən problemləri də ola bilər, ilk baxışda böyük bir fəlakət kimi görünən hadisələr də ola bilər. Mömin bütün bunların hamısına imtahan gözüylə baxmalı, Allaha təvəkkül etməli və Onun rizasına uyğun olan rəftarı göstərməlidir. Bir ayədə möminlərin qarşılaşacaqları çətinliklərdən belə bəhs edilir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

Yalnız çətinliklər deyil, dünya həyatındakı nemətlər də Allahın bir imtahanıdır. Allah verdiyi hər nemətlə bərabər insanın Ona şükür edici olub-olmadığını sınayar. Nemətlərlə yanaşı, Allah insanın qarşısına həyatı boyunca üzərində qərar verməli olan bir çox hadisələr çıxardar. Bu hadisələrin hamısında insan ya Allah rizasına, ya da nəfsinə uyğun bir qərar vermə şansına sahibdir. Əgər hadisənin bir imtahan olduğunun fərqində olar və Allahın razılığına uyğun qərarı

versə, imtahanı qazanar. Nəfsi lehində qərar verdiyi halda isə bu, həm də axirətdə özünü peşman edəcək bir günah olacaq, həm də onu dünyada ikən mənəvi cəhətdən narahat etməyə və yormağa başlayacaq. Allah dünya həyatındakı hadisələri onsuz da imtahan məqsədi ilə yaradır. Qafil insanların "təsadüf" və ya "çatışmazlıq" deyə xarakterizə etdikləri hadisələr, əslində qədərlərində sonsuz hikmətlə yaradılır. Allah Quranda buna nümunə olaraq, yəhudilərin bir imtahanından bəhs edir; Yəhudilərin şənbə günü iş görmələri qadağan edilmiş, amma ovlamaq istədikləri balıqlar da özlərinə həmişə o gün gəlmişdir:

**Onlardan dəniz sahilində yerləşən kənd barəsində xəbər al! O vaxt onlar şənbə günü üçün qoyulmuş qadağanı pozurdular. Şənbə günü onların balıqları üzə çıxaraq onların yanına axışır, şənbədən başqa günlərdə isə onlara tərəf gəlmirdilər. Günah etdiklərinə görə Biz onları beləcə sınayırdıq (Əraf surəsi, 163)**

Burada haqqında danışılan yəhudilərin çoxu, balıqların "təsadüfən" şənbə günləri şəhərlərinə axın etdiklərini sanmış ola bilər, halbuki bu Allahın yaratdığı xüsusi bir imtahandır. Eynilə bunun kimi bizim yaşadığımız hər hadisədə bir İlahi hikmət və imtahan vardır. Möminə düşən, bu həqiqəti hər zaman yadda saxlamaq və daim Allahın razılığına görə davranışlar göstərərək, dünya imtahanını qazanmağa çalışmaqdır.

# ÖLÜM SON DEYİL

**Hər bir kəs ölümü dadacaqdır. Biz sizi, şərlə də, xeyirlə də sınayırıq və siz Bizə qaytarılacaqsınız. (Ənbiya surəsi, 35)**

Ölüm, insanın bu dünyadakı həyatı içində yaşayacağına əmin olduğu çox əhəmiyyətli bir həqiqətdir. Bir saat, hətta bir dəqiqə sonra yaşayacağımızı bilmədiyimiz kimi, nələr yaşayacağımızdan da əmin deyilik. Həyatımızı, əmin olmadığımız, aqibətini bilmədiyimiz hadisələrə görə istiqamətləndirməyimizin nə qədər səhv olacağı da ortadadır. Əmin olduğumuz tək şey ölümü yaşayacağımızdır. Həyatımızı bu qəti həqiqətə görə nizamlamalı olduğumuz, yalnız bu düşünüldüyündə aydın olur.

Ölüm də insanın imtahanının bir hissəsidir. Allah, Quranda həyatı və ölümü insanı imtahan etmək üçün yaratdığını belə bildirmişdir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

Ölüm yalnız dünya həyatının, birbaşa imtahanın sonudur. Eyni zamanda, sonsuz olan axirət həyatının da başlanğıcıdır. İman edənlər bu səbəblə ölümdən qorxmazlar. Həyatlarını Uca Allahın razılığını güdərək, axirətə istiqamətli saleh əməllərlə keçirdikləri üçün Allahın vəd etdiyi cənnəti ümid edərək ölümü gözəl qarşılayarlar.

İman etməyənlər isə, ölümü yox olma zənn etdikləri üçün ölümdən çox qorxar və düşüncəsi belə onlara iztirab verər. Bu səbəblə, ölümü heç düşünməz, hətta ağıllarına belə gətirmək istəməzlər və ölümdən qaçarlar. Halbuki, bu boş səydir. Heç kim Allahın özünə təqdir etdiyi ölüm saatından qaça bilməz. Bir ayədə bu həqiqət belə vurğulanır:

**Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. (Nisa surəsi, 78)**

Ölümü düşünməmək, həqiqətən qaçmaqdır. Ölüm gec-tez insanı yaxalayacağına görə, ölümü düşünərək hərəkət etmək isə ağıllı davranmaqdır. Möminlər bu ağılla yaşayarlar. Ölüm gələnə qədər saleh əməllər edirlər. Çünki Allah Quranda bunu əmr etmişdir:

**Sənə ölüm gələnədək Rəbbinə ibadət et. (Hicr surəsi, 99)**

Ölümü düşünmək insanı güclü və iradəli edər. Nəfsinin, dünyanın aldadıcı zövqlərinə aldanaraq özünü səhv davranışlara sövq etməsinə mane olar. İnsana, dünyadakı keçici və saleh olmayan rəftarlara qapılmayacaq iradəni təmin edər. Bu səbəblə, mömin tez-tez ölümü düşünməli, özü də daxil olmaqla, bütün insanların yaxında bir gün öləcəyini təfəkkür etməli və dünyaya bu şüurla baxmalıdır.

Ölümlə əlaqədar Quranda xəbər verilən bir digər həqiqət, ölüm zamanı yaşanan hadisələrdir. Ölməkdə olan bir adamı görənlər, onun yalnız bioloji ölümünü seyr edir. Halbuki, əslində ölən adam yeni bir aləmə keçər və ölüm mələkləri ilə qarşılaşar. Əgər inkarçı bir adamdırsa, ölüm ona böyük ağrılar verər və ölüm mələkləri canını əzab verərək alarlar. Aşağıdakı ayələrdə, inkarçıların ölüm anındakı bu əzabı izah edilir:

**...Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" – dediklərini bircə görəydin. (Ənam surəsi, 93)**

**Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda halları necə olacaq? Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı. (Məhəmməd surəsi, 27-28)**

Ölüm mömin üçün böyük xoşbəxtlik və sevincin başlanğıcıdır. Ruhu ən dərindən ağrıyla alınan kafirin əksinə, möminin ruhu, "yumşaq çəkib alanlar" tərəfindən (Naziat surəsi, 2) sanki yuxuda ruhun ağrı olmadan bədəndən ayrılıb fərqli bir aləmə keçməsi kimi (Zumər surəsi, 42) alınır. Ayələrdə iman edənlər üçün belə buyrulur:

**Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır. O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin! (Nəhl surəsi, 31-32)**

# ÖLÜM, İMAN EDƏNLƏR ÜÇÜN NEMƏT, İNKAR EDƏNLƏR ÜÇÜN FƏLAKƏTDİR

ADNAN OKTAR: **Dinsiz olan üçün onsuz da ölümlə fəlakət başlayır, ölümdən əvvəl də onsuz dinsiz sevgisizliyin, ehtirasdan uzaq olmanın, insanlara həmişə şübhə ilə baxmanın, etibarsızlığın, təkliyin, eqoizmin acısıyla yanıb qovrular dünyada. Onlara çox bəlalar üz verər həmçinin, lakin onu həyatın axışı içində normal bir şey zənn edərlər. Lakin ölərkən çox faciəvi bir ölümlə ölər küfr əhli**. *Yəni "tikanlı bir kolun içindən sökülüb çıxarılması kimidir" deyir, "ruhu çıxarılır" deyir rəvayətdə və "döyülərək, kürəyinə vurularaq yəni çox şiddətli zərbələr alaraq canı alınar", artıq burada başlayır hadisə. Hər mərhələsi bir iztirabdır, amma qəbir həyatı deyilən hadisə çox qısadır. Çünki zaman nisbidir, izafi olduğu üçün göz açıb bağlamaq qədər qısa bir vaxtdır, o çox qısa bir vaxtdır. "Dərhal insanlar qiyamətin qopduğunu görəcək" deyir öldükdən sonra. Çünki məsələn, yatan bir insan bəzən 15 gün komada olur, oyandırırsan, insana əgər bir gün desən bir gün olduğuna inanır, 6 saatdır yatırsan desən, 6 saat olduğuna inanır, yəni sən nə desən ona görə 1 il desən 1 ilə də inanır. Zaman izafidir, bilə bilməz. O insanlar da belə olacaq, zaman nisbi olduğu üçün qalxanda onu bilə bilməzlər, çox tez keçəcək vaxt. Amma o mühitə gətirildiklərində onsuz da orada hadisə dərhal aydın olacaq. Yəni möminlərin önündəki və sağındakı işıq yanında sürücüləri olması, nurlu və çox gözəl olmaları, nurdan paltarları yəni üstləri örtülü olacaq. O, onların onsuz da əhli-i nicat, qurtuluş əhli olduğunu göstərir, qurtulduqlarını göstərir. Amma küfr onsuz da çox pərişandır, çirkli və pis hala gətiriləcək, onsuz da onun üçün bir qurtuluş yolu, dönüş yoxdur, Allahın diləməsi xaricində bir daha xilas ola bilməz.*

*Cəhənnəm ərazisinə daxil ediləcəklər məqsədli olaraq, hər kəs bir dəfə görsün. Çünki Allah daim cəhənnəmdən bəhs edir, amma cəhənnəmi insanlar görməmiş olar o zaman. Yəni sonsuza qədər bilməmiş olacaqlar, halbuki möminlərin hər kəsin maraqlandığı, bilmək istədiyi bir yerdir cəhənnəm. Yəni qalmaq istəməzlər, amma görmək istəyərlər, Allahın bir sənətidir o da, çünki xüsusi yaradılmışdır.*

*Orada müsəlmanlar cəm halında bir yerə gələcəklər, o küfr də bir yerə gələcəkdir, yəni "möminlərin liderləri, qabaqcılları və imamları ilə birlikdə bir yerə gətiriləcəklər" (İsra surəsi, 71) deyir Allah. Yəni biz Peyğəmbərimiz (s.ə.v)-in bayrağı ətrafında toplanacağıq, yəhudilər hz. Musa (ə.s)-ın bayrağı ətrafında toplanacaqlar, hər qrup bu cür toplanacaq. Sonra möminlərə Allah "Keçin" deyir, cənnətə. Cənnət qapıları son dərəcə möhtəşəmdir, son dərəcə gözəldir, möminlər oraya keçdikdən sonra küfr orada buraxılır. Ondan sonra da, onlar da cəhənnəmə aparılacaqlar, amma cəhənnəmə aparıldıqdan sonra onlar bölmələrinə göndərilir, məhz ən faciəvi əzab çəkəcəkləri şey odur. Münafiqlər ən alt dərin təbəqələrinə endirilir cəhənnəmin. Xüsusi cəhənnəm işçiləri var, sayları Quranda 19 olaraq keçir yəni güclü qüvvətli, yalvarsalar da onlar ondan təsirlənən varlıqlar deyil, xüsusi yaradılmışlar, cəhənnəm zəbaniləridir.*

*Yəni Allahın əmrindədirlər, güclü qüvvətlidir, sürüyərək götürüb aparırlar. Zorla edər yəni, Allah onlara xüsusi bir güc vermişdir, Allahın təcəllisidir onlar, amma onlar cəhənnəmdə yaşadıqları halda baxın çox əhəmiyyətlidir bu, cəhənnəmin narahatlığını hiss etməzlər, cəhənnəm onlara cənnət kimi gəlir, Allahın verdiyi güclə təsirlənməzlər, yəni tərs təsir edər onlara, küfr üçün əzabdır, yəni qavrayışa bağlıdır bu.*

*Onun üçün onlar orada Allahın qulu olaraq Allaha ram olmuş, Allaha bağlanmış xidmətçilər olaraq sonsuza qədər zəbanilər xidmət edəcəklər, cəhənnəmin ən dərin təbəqəsinə münafiqlər endiriləcək. Hz. Musa (ə.s) dövrünün münafiqləri, Peyğəmbərimiz (s.ə.v) dövrünün münafiqləri, hz. Mehdi (ə.s) dövrünün münafiqləri hamısı bir yerə gətiriləcək, yerin ən alt təbəqəsinə, cəhənnəmim ən alt təbəqəsinə endirilər bunlar. Təbii o qaranlıq bir yer, çox iztirablı bir yer, çirkin bir yerdir, maqmanın, odun, pis qoxunun, kirin çox olduğu bir yerdir, lakin ən çox onları narahat edəcək olan şey müqayisədir. Yəni cənnətlə müqayisə etməkdir, cənnəti gördükcə yaxşı şəkildə əzabları artacaq, inşaAllah. (Adnan Oktar Çay TV reportajından, 25 fevral 2009)*

# AXİRƏTƏ İMAN

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

İnsanın dünyadakı imtahanının sonunda ya mükafat, ya da cəza vardır. Yaxşı işlər görənlər, Allaha iman edənlər, Allahın razılığını qazanaraq sonsuz cənnətlə mükafatlandırılarlar; pis olanlar, Allahı inkar edənlər və Allahın qoyduğu sərhədləri tapdalayanlar isə sonsuz əzab yaşayacaqları cəhənnəmə layiq olarlar.

İnsan üçün yox olmaq deyə bir şey yoxdur. Sonsuz həyat yaradıldığımız andan etibarən başlamış vəziyyətdədir. Hal-hazırda sonsuz həyatın içindəyik. Sınaq vaxtımızın sonunda, ölüm dediyimiz keçid anından sonra, yeni bir inşa ilə sonsuzluğun içində yaşamağa davam edəcəyik. İnsanın bu həyatının əzabla ya da nemətlər içində keçəcəyi isə, dünya həyatında Allahın sözü olan Qurana bağlılığına, Allahın razılığını güdməsinə bağlıdır. Bütün bu sistem, kainat, dünya, insan və insana istiqamətli yaradılan hər şeyin səbəbi, sonsuz həyat olan axirətə istiqamətlidir. Allah, insanı bir məqsədlə yaratdığını, bu dünyadakı qısa həyatından sonra da axirətdə Özünə hesab verəcəyini belə bildirir:

**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?” (Muminun surəsi, 115)**

Allahın, orta hesabla altmış və ya yetmiş il kimi, sonsuzluqla yanaşı, bir “an”dan fərqi olmayan qısa dünya həyatının əvəzinə sonsuz həyatı vəd etməsi, çox böyük bir nemətdir.

İman və Allahın razılığını axtarmaq kimi, insanın yaradılışına ən uyğun, ən çox hüzur içində yaşaya biləcəyi quruluşa sahib olmağın qarşılığında, Allahın sonsuz gözəl həyat olan cənnəti verməsi Onun lütfündəndir:

**İman gətirib xeyirxah işlər görənləri ağacları altından çaylar axan Cənnətdəki otaqlarda yerləşdirəcəyik. Onlar əbədi olaraq orada qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ənkəbut surəsi, 58)**

Axirət həyatı, Allahın sonsuz nemətlərinin sərgilənməsi ilə yanaşı, Onun sonsuz ədalətinin təcəlli etməsi baxımından da əhəmiyyətlidir. İnsanların dünyada etdikləri hər şeyin qarşılığının verildiyi yer, ədalətin tam olaraq tətbiq edildiyi, mərhəmətin də misliylə təcəlli etdiyi yer, axirət olacaq. Bir ayədə, axirətdə təcəlli edəcək olan bu mütləq ədalət belə ifadə edilir:

**... De: “Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz”. ..." (Nisa surəsi, 77)**

Gördüyümüz hər şeyi yaratmağa qadir olduğuna şahid olduğumuz Allah, əlbəttə ki, axirəti yaratmağa qadirdir:

**Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir (Yasin surəsi, 81)**

# QİYAMƏTƏ İMAN

**Həmin Saat gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları diriləcəkdir. (Həcc surəsi, 7)**

Qiyamət günü, Allahın kainat üçün təqdir etdiyi ömrün bitdiyi gündür. O gün insanların imtahanı sona çatacaq və imtahan yeri olan dünyanı, hər şeylə birlikdə, Allah darmadağın edib yox edəcək. Bu, Allahın Quranda vəd etdiyi bir sondur. Kainatın fiziki ömrünün bitəcəyi, elm adamlarının da müşahidə və təsbitləri nəticəsində qənaətə gəldikləri və gözlədikləri elmi bir həqiqət halını almışdır.

Quranda qiyaməti təsvir edən bəzi ayələr belədir:

**Sur bircə dəfə üfürüləcəyi,**

**yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı zaman**

**həmin gün Vaqiə qopacaq.**

**Göy yarılacaq və həmin gün o, süst olacaqdır. (Haqqə surəsi, 13-16)**

Qiyamət günü, ölmüş olan bütün insanları Allah diriləcəkdir:

**Sonra siz həqiqətən qiyamət günü dirildiləcəksiniz. (Muminun surəsi, 16)**

Allah, diriltdiyi bütün insanları o gün bir yerə toplayacaqdır:

**Özündən başqa məbud olmayan Allah, baş verəcəyinə şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə toplayacaqdır. Verdiyi xəbərdə Allahdan daha doğru söyləyən kim ola bilər? (Nisa surəsi, 87)**

Qiyamət günü, hamımızın tək-tək Allahın hüzuruna çıxacağı və dünyada etdiyimiz hər şeyin ortaya qoyulacağı zamandır:

**O gün siz məhşərə gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcəkdir. (Haqqə surəsi, 18)**

O gün, hər kəs etdiyinin qarşılığını tam olaraq alacaq, Allahın sonsuz ədaləti təcəlli edəcək:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

Qiyamət günü, Allahın; kainatın, dünyanın və hər şeyin bioloji sonunu gətirəcəyi zamandır. O an bütün fizika qanunlarını qoyan Allah, o qanunları işləməz hala gətirəcək və fəlakət kimi ifadə etdiyimiz hadisələrdən qat-qat üstün olan bir sıra fəlakətlər zənciri başlayacaq.

Hal-hazırda üzərində yaşadığımız dünya, onsuz da çox həssas nizamlarla varlığını davam etdirir. Dünyanın Günəşə olan bucağı və uzaqlığı tam olması lazım olan səviyyədə nizamlanmış, cazibə qüvvəsi sabitlənmiş, səmada dünyaya çarpıb yox edə biləcək göy daşlarından qorumaq üçün, atmosferə sanki qalxan kimi qoruyucu bir tavan edilmiş və bunun kimi daha başqa həssas qanunlar yaradılmışdır. Bütün bunları yaradan, hələ insan dünyada yox ikən bütün bu

tarazlıqları insanın həyatına uyğun olaraq təşkil edən, aləmlərin Rəbbi olan Allahdır. Allahın kainatı hər an qüdrəti altında tutduğu belə xəbər verilir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır (Fatir surəsi, 41)**

Allahın, bu həssas tarazlıqların fəaliyyətini pozduğu an, hər şey yox olacaq. Məhz o an, Allahın vəd etdiyi qiyamət günüdür.

Qiyamət günü Allahın meydana gətirəcəklərini görüb yaşayan insanlar, hadisələrin dəhşətindən şoka düşəcək:

**Ey insanlar! Rəbbinizdən qorxun! Həqiqətən, o Saatın sarsıntısı müdhiş bir şey olacaqdır. Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyini unudacaq, hər bir hamilə qadın bətnindəkini salacaqdır. İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı hədsiz şiddətlidir.(Həcc surəsi, 1-2)**

**Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız? (Müzəmmil surəsi, 17)**

Qiyamət günü başqa nələrin olacağını Allah bizə Quranda belə bildirmişdir:

**Günəş sarınacağı zaman, ulduzlar soluxub sönəcəyi zaman, dağlar hərəkətə gətiriləcəyi zaman, boğaz dəvələr başlı-başına qalacaqları zaman, vəhşi heyvanlar bir yerə toplanılacağı zaman, dənizlər alovlanacağı zaman, hər kəs öz tayına qovuşdurulacağı zaman, diri-diri torpağa basdırılmış qız uşağı soruşulacağı zaman hansı günaha görə öldürülmüşdür; səhifələr açılacağı zaman, göy qopardılacağı zaman, Cəhənnəm alovlandırılacağı zaman və Cənnət möminlərə yaxınlaşdırılacağı zaman, hər kəs bu gün üçün özünə nə tədarük etdiyini biləcəkdir. (Təkvir surəsi, 1-14)**

# QİYAMƏT GÜNÜ İNKAR EDƏNLƏR, HEÇ YAŞAMADIQLARI ŞİDDƏTDƏ QORXU YAŞAYACAQLAR

ADNAN OKTAR: *Zamanla imanda formalaşma, artma olur, zamanla da küfrdə inkişaf və artma olur. Hz. Mehdi (ə.s)-dan və hz. İsa (ə.s)-dan sonra insanlarda bir ümidsizlik yayılacaq. Bunu fürsət bilən küfr dövrəyə girəcək. Yenə eyni azğınlıqlarına davam edəcəklər. Səid Nursi həzrətləri, "Qiyamlar tərzində edəcəklər" deyir; yəni, yenə ehtimalla bir kommunist qiyamı tərzində. Müasir kommunizm tərzində bir düşüncə çıxacaq, yeni-yeni axmaq iddialar ortaya atacaqlar. "Biz də hər şeyi yaradarıq, biz də hüceyrəni yaradarıq, insan yaradarıq" kimi. Bu klonlamalar, bu texnikalar bir az da irəliləyəcək. Genlərlə oynamaq, genetik şifrələrlə oynamaq bir az daha inkişaf edəcək. İnsanlarda elə bir düşüncə olacaq ki, bir müddət sonra, "mən də insan yaradaram" deyəcəklər. İlahlıq iddia etməyə başlayıb, azacaqlar. Üç böyük inqilab olacağını söyləyir Səid Nursi həzrətləri. Hicri 1506-cı ildən sonra; yəni ard-arda "inqilabı-ı əzm" deyir. Və getdikcə insanlar əxlaqsızlığa, pozğunluğa doğru gedəcəklər. Artıq açıq-aşkar küçələrdə əlaqəyə girmək, müqəddəsata aid hər şeyə hücum edilməsi; məsələn, yer üzündə qoymayacaqlar Quran qalsın. Yəni, gizli-gizli nə qədər varsa yandırıb məhv edəcəklər. Müqəddəsata aid nə bir məscid buraxacaqlar, nə bir yazı, nə də hər hansı bir kağız parçası, hamısını məhv edəcəklər. Böyük bir azğınlıq və tuğyan olacaq, qiyamətin qopmasından çox az bir zaman əvvəl, məsələn, 20-30 müsəlman varsa, hansı ki, çox az olacaq sayları, onlar da gizli olacaq. Allah onların canını alacaq, qiyamət küfrün və dəlalət üzərinə qopacaq. Məhz o axşam və şam arası deyilən şeydir, İstanbulda yenə insanlar azğınlaşacaqlar, quduracaqlar. Heç təxmin etməyəcəklər. Məsələn, Boğazın kənarında tam belə içki masasını qurmuş rəzalət çıxararkən, əxlaqsızlıq edərkən, açıq-aşkar cinsi əlaqədə olarkən birdən Boğazın altından lavaların çıxdığını görəcəklər. Boğazın iki tərəfinin birləşdiyini görəcəklər. İki tərəf qarşı-qarşıya, ikisi birləşəcək və geri açılacaq və böyük lavaların hər yerdən fışqırdığını görəcəklər. Dənizin yanmağa başladığını görəcəklər, o zaman anlayacaqlar ki, qiyamət başladı. Və göydən nur kimi, çox göstərişli, amma heybətli olaraq da mələklər enməyə başlayacaqlar. Dünyada insanların qorxa biləcəyi ən şiddətli yüksək qorxunu, heç bir insan yaşamamışdır, məhz o zaman yaşayacaq insanlar. Yəni, bu dərəcə yüksək qorxunu heç bir insan yaşamamışdır. Allah* **"Sən onları sərxoş zənn edərsən, onlar sərxoş deyillər"** *(Həcc surəsi, 2) deyir; danışma qabiliyyətlərini itirəcəklər, şüurları bağlanacaq, nə övladı, nə uşağı ilə əlaqəsi qalacaq. Yəni, öz canının dərdinə düşəcək, amma öz canını da qurtaracaq ağlı qalmayacaq. Şüuru bağlanacaq qorxunun şiddətindən. Allah,* **"Saçları dümağ olacaq"** *(Müzzəmmil surəsi, 17) deyir; ani saç ağarması adi halda mümkün olan bir şey deyil, qorxunun şiddətindən bu olacaq. Bir anda saçları ağaracaq. Və fasiləsiz davam edəcək zəlzələlər, çox yüksək balla zəlzələlər davam edəcək.* **"Və getdikcə dağların əridiyini görərsən"** *(Qariə surəsi, 5) deyir, məsələn, yeddi təpədən ibarətdir İstanbul. Getdikcə əriməyə başlayacaq və düz sahə halına gəlməyə başlayacaq. (Adnan Oktar Kaçkar TV reportajı, 19 Fevral 2009)*

# HZ. İSA (Ə.S)-DAN ETİBARƏN BÜTÜN İNSANLIQ ALƏMİ QİYAMƏT GÜNÜ YAŞANACAQLARI GÖRƏCƏK

ADNAN OKTAR: *Çox az müsəlman qrupu qalacaq, bir əsər-i rəhmət olaraq deyir Səid Nursi; hədislər də ifadə edir bunu onsuz da. O möminlərin canları alınacaq, ya bir neçə saat əvvəl, ya bir neçə gün əvvəl hamısının canları alınacaq, qiyamət küfrün başına qopacaq deyilir. Qiyamət qopanda bütün müsəlmanlar da bunu məzarlarından seyr edəcəklər. Bir qismi də əgər yaşayan olarsa, imanı zəif ... amma qalmayacaq onsuz da o dövrdə, bütün möminlər məzarlarından seyr edərlər. Digər küfrdən olan kəslər də onsuz da görmüş olacaqlar;* **"Saçları ağarar"** *(Müzzəmmil surəsi, 17) deyir ayədə, yəni şokun şiddətindən normal qapqara saçı bir anda dümağ olacaq deyir.*

*Əlbəttə, yəni dümağ olacaq saçları deyir. Bu insan ağlının qavraya biləcəyi ən yüksək qorxu dərəcəsidir. İnsanlar heç bir zaman bu qorxu dərəcəsini dadmamışlar dünyada, bu qədər şiddətli əzab dadmamışlar. Məhz bunu qiyamətdə görəcəklər; heç bir insanın saçı birdən ağarmaz, qorxunun şiddətindən bütün bədən əzələləri idarəsiz hala gəlməz və iztirabı çox çətindir, insanın şoka girməsi çox çətindir. Bilirsiniz böyük qəzalarda olur bəzən, amma bu qədər, bu dərəcə olmaz. Məhz qiyamətdə bu olacaq. Çünki mələklərin endiyini də görəcəklər və çox şiddətli zəlzələlər olmağa başlayacaq, dağlar yavaş-yavaş əriməyə başlayacaq. Holdinqlər, binalar, qum kimi əriyib yayıldığını gördükcə və ölüm də yavaş-yavaş gələcəkdir. Çox şiddətli əzab çəkəcəklər.* **Və bütün insanlıq aləmi də hz. Adəm (ə.s)-dan etibarən bu vaxta qədər olan hər kəs bu səhnəni görəcək, dünya yerlə bir olacaq, tamamilə açılacaq, belə dümdüz, maqması və s. hamısı açılacaq və tam bir qiyamət olacaq;** *yarımçıq deyil. Ay, Günəş hamısı onun içinə daxildir. Hər yer dümdüz olacaq. Ondan sonra "yeni bir yaradılışla yaradacağam" deyir Allah. Yeni bir yaradılışla, yəni yeni fizika qanunları, yeni bir sistemlə yaradır; fizika qanunları dəyişəcək, bizim alışdığımız qanunlar xaricində yeni bir qanun yaradılacaq deyir axirətdə. Məsələn, bədən quruluşu da yeni bir qanunla yaradılır, artıq daxili orqanlar yoxdur yeni yaradılışda; ürək yox, mədə yox, daxili orqanların heç biri olmayacaq, tam fərqli bir insan quruluşu. (Adnan Oktar Çay TV reportajı, 31 yanvar 2009)*

# DİRİLİŞ

**O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir (Yasin surəsi, 78-79)**

Diriliş, ölümdən sonra yenidən yaradılışdır. Ölüm yox olmaq demək deyil. Allah, dünyanı insanı sınamaq üçün yaratmışdır və bu imtahan mühitində insanın sonsuz həyatını necə keçirəcəyi müəyyənləşdiriləcəkdir. Hər insan ölümüylə birlikdə axirət həyatına addım atacaq, Allah onu yeni bir bədənlə yaradıb dünyadakı işlərinə görə cənnətə və ya cəhənnəmə daxil edəcəkdir. İnsanların dirildilməsi Allah üçün çox asandır. Bir ayədə qiyamət günü insanların kütləvi şəkildə dirildiləcəyi belə izah edilir:

**Şübhəsiz ki, dirildən də, öldürən də Bizik. Dönüş də yalnız Bizədir. O gün yer onlardan ötrü yarılacaq, onlar sürətlə carçıya doğru çıxacaqlar. Beləcə, onları bir yerə yığmaq Bizim üçün asandır. (Qaf surəsi, 43-44)**

Bəzi insanlar Allahın ölüləri necə dirildəcəyini soruşar və buna həqiqətən şübhə duyarlar. Halbuki, insanı ilk dəfə o hələ heç bir şey deyilkən yaratmış olan Allahdır və Allah ilk əvvəl yoxdan yaratmış olduğu insanı yenidən diriltməyə qadirdir. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi oradan uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, vaxtilə bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir.**

**Bunun səbəbi Allahın Haqq olmasındadır. O, ölüləri dirildir və hər şeyə qadirdir. (Həcc surəsi, 5-6)**

Allah, insanları necə diriltdəcəyinə bir nümunə təşkil etməsi baxımından, hamımızı şahid tutduğu bir təbiət hadisəsini necə yaratdığına diqqət çəkər. Allah, quruluqdan ölmüş, səmərəsiz, artıq münbit olmayan bir torpağı, yağış yağdıraraq dirildib canlandırar və məhsul verdirər. Məhz insanları ölümlərindən sonra diriltmək də Allah üçün bu şəkildə asandır:

**Küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Nəhayət, o küləklər ağır buludları daşıyarkən, Biz o buludları ölü bir diyara tərəf qovur, onunla yağmur endirir və bunun vasitəsi ilə hər cür meyvə yetişdiririk. Biz ölüləri də belə diriltdəcəyik. Bəlkə, düşünüb ibrət alasınız (Əraf surəsi, 57)**

Allah üçün hər şey asandır. Bütün insanların yaradılması və dirildilməsinin, tək bir insanınkı kimi olduğu Quranda belə xəbər verilmişdir:

**Sizi yaratmaq və diriltmək ancaq bir adamı yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir. (Loğman surəsi, 28)**

# HESAB GÜNÜ

**Onlar Haqq-hesab gününün nə vaxt olacağını soruşarlar. (Zəriyət surəsi, 12)**

**Sizə vəd olunanlar həqiqətdir.**

**Haqq-hesab da mütləq çəkiləcəkdir.. (Zəriyət surəsi, 5-6)**

Allah, insanları etdiklərindən məsul tutur. İmtahan olan insan, hesab günü, dünyada etdikləriylə sorğu-sual olunacaqdır. Heç bir etdiyinin gizli qalmadığını, hesab günü bütün etdikləri ortaya töküldüyündə görəcək:

**O gün insanlar yer üzünə çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır. Allah deyəcək: "Bu gün hökm kimə məxsusdur? Tək olan, hər şeyə Qalib Gələn Allaha!" Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq olmaz. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Mömin surəsi, 16-17)**

Dünyada insanların hər zaman layiq olduqlarının tam qarşılığını almadığını görərik. Allah, bəzi insanlara dünyada müddət verir və onların etdikləri pisliklərin qarşılığını axirətdə əskiksiz olaraq verəcəyini bildirir. Dünyada qeyri-qanuni işlər edənlərin bəzən fərq edilməmələri, bəzən də qanundan qaça bilmələri səbəbiylə, cəzadan xilas olduqlarını zənn etmələri böyük bir qəflətdir. Bu kəslər, hesab günü insanın həyatı boyunca bütün etdiyi işləri Allahdan gizləyə bilmədiyini görəcəklər. Allah, Hafiz (hər şeyi yaddaşında saxlayan) sifətiylə, insanların hər davranışını bilir və mələklərinə qeyd etdirir. Quranda bu həqiqət belə bildirilir:

**Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın. (Qaf surəsi, 17-18)**

Hər şeyi ən incə təfərrüatına qədər bilən, insanın söz olaraq söylədiklərinə də, söyləməyib ürəyindən keçirdiklərinə də hər an şahid olan Allah, hesab günü, sonsuz ədalət sahibi olaraq insanlara ən kiçik haqsızlıq etmədən mühakimə edəcək:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

Allah, sonsuz ədalət sahibi olduğu kimi, sonsuz mərhəmət və lütf sahibidir. Yaxşı əməl sahibi olanlara qat-qat gözəlliklə qarşılıq vəd edir, pislik edənlərə də layiq olduqlarıyla cəzalandırılacaqlarını bildirir:

**Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)**

Hesab vaxtında insanlar, dünyada nə etdiklərini göstərən kitablarının özlərinə veriliş şəklinə görə, cənnət və ya cəhənnəmə girəcəklər:

**Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala tutulacaq və sevincək öz ailəsinə qayıdacaqdır! Kimin kitabı arxa tərəfindən veriləcəksə, o özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır! Sözsüz ki, o, dünyada ikən öz ailəsində sevinc içində idi və elə güman edirdi ki, Rəbbinin hüzuruna qayıtmayacaqdır. Xeyr! Sözsüz ki, Rəbbi onu görürdü (İnşiqaq surəsi, 7-15)**

# CƏNNƏT VƏ CƏHƏNNƏM

**Cəhənnəm əhli ilə Cənnət əhli eyni deyillər. Cənnət əhli uğur qazananlardır. (Həşr surəsi, 20)**

Allah, ilk insan olan hz. Adəm (ə.s)-ı və yoldaşını yaradanda onları cənnətə yerləşdirmişdir. Ancaq Quranda bildirildiyi kimi, hz. Adəm (ə.s) və həyat yoldaşı, şeytanın təlqinləriylə, Allahın özlərinə qoyduğu qadağanı pozmuşlar.

Bu hadisədə insan bunu düşünməlidir: İnsan, gözəl olan bir şeyin gözəlliyini və qiymətini çirkini gördükdə; yaxşı olanı da pisi bildiyində anlayar. Hər şeyin dəyəri ancaq əksi ilə müqayisə edildiyi zaman tam olaraq başa düşülər. Allah hz. Adəm (ə.s)-ı və yoldaşını birbaşa cənnətə yerləşdirdiyindən, bu fərqi anlaya biləcək müqayisəli mühitdə olmamışlar. Bu səbəbdən, cənnətin nemətlərini və mükəmməlliyini anlaya bilməmiş olan insanlar, hər şeyin əksiylə yaradıldığı dünyada yaşadılmağa başlayaraq, onlara müqayisə etmə imkanı verilmişdir. Burada imtahan olaraq, pisi və çirkini görərək, yaxşının və gözəlin qiymətini anlayacaq olan insanlar, cənnətin qiymətini tam olaraq anlayacaq yetkinliyə gəlmiş olacaqlar.

Allah, hesab günü insanları diriltdikdə, bütün insanları cəhənnəmin ətrafına toplayacaq və öz sərhədlərini qorumaqda dəqiqlik göstərmiş iman edənləri qurtaracaq. Cəhənnəmi şəxsən görən biri, əlbəttə ki, cənnətin böyük bir qurtuluş və böyük bir nemət olduğunu yaşayaraq və hiss edərək anlamış olacaq. Bu mövzunu xəbər verən ayələrdə belə buyrulur:

**Rəbbinə and olsun ki, Biz onları şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik. Sonra hər firqədən Mərhəmətli Allaha ən çox asi olanı çıxardacağıq. Orada yanmağa daha çox layiq olanları, əlbəttə ki, Biz yaxşı tanıyırıq. İçinizdən hər kəs oraya varid olacaqdır. Bu, Rəbbinin əzəldən müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri oddan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik. (Məryəm surəsi, 68-72)**

Dünyada, bu qiyməti anlayan insanlara Allah, nemətlərlə təchiz edilmiş sonsuz gözəllikdə bir həyat olan cənnəti vəd etmişdir:

**İman gətirib saleh əməllər edənləri isə ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəyik. Bu, Allahın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər? (Nisa surəsi, 122)**

Bu dünyada özünə doğru yol göstərilmiş və xəbərdar ikən, pis yol olan inkar yolunu seçən insanlar da, sonsuz bir əzabın yaşanacağı cəhənnəmə göndəriləcəkdir. Şübhəsiz ki, belə olması Allahın sonsuz ədalətinin də bir təcəllisidir:

**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açıq olacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?" Onlar: "Əlbəttə, gəlmişdi!" – deyəcəklər. Lakin əzab Sözü kafirlər barəsində gerçəkləşdi. (Zumər surəsi, 71)**

İnsan, Allahın Quranda təsvir etdiyi və bəyəndiyi mömin modelinə uyğun bir yaradılışda var edilmişdir. Yaxşı və pis özünə açıq şəkildə təsvir edilmişdir. Həmçinin özünə, bunları fərq edə

biləcəyi göz, qulaq və ürək; qavrayan ağıl və mühakimə xüsusiyyətləri də verilmişdir. Allahın varlığını, böyüklüyünü bu xüsusiyyətləriylə rahatlıqla anlayan və iman edə biləcək ikən, inkar etmiş olanların əlbəttə ki, iman edənlərlə bir ola bilməyəcəyi və eyni yerdə olmağa layiq olmadıqları da qətidir. Allah bu iki qrupun axirətdə necə ayrılacağını belə xəbər verir:

**Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir. Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 25-27)**

Allah, iman edən və Allah rizası üçün dünyada yaxşı işlər görənlərə vəd etdiyi cənnət həyatını, Quranda təfərrüatlarına qədər təsvir edir. Bununla möminlər müjdələnir:

**Onlar Allaha yaxın olanlar, Nəim bağlarında qalacaq kimsələrdir. Onların çoxu əvvəlki nəsillərdən, az bir qismi də axırıncılardandır. Onlar bəzənmiş taxtlar üstündə qarşı-qarşıya əyləşib dirsəklənəcəklər. Onların ətrafında həmişəcavan xidmətçi oğlanlar fırlanacaqlar; çeşmə şərabı ilə dolu badələr, bardaqlar və qədəhlərlə ondan başları ağrımaz və məst olmazlar, bəyənib seçdikləri meyvələr və istədikləri quş əti ilə hərlənəcəklər. Onları iri qaragözlü hurilər gözləyir – sədəf içində saxlanılmış mirvariyə bənzər hurilər. Bu, onların etdikləri əməllərin mükafatı olacaq. Onlar orada nə boş söz, nə də günaha səbəb olan söhbət eşidəcəklər. Ancaq: "Salam! Salam!" – sözləri eşidəcəklər. Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Onlar tikansız sidr ağacları arasında, meyvələri salxım-salxım asılmış banan ağacları altında, uzanmış kölgəliklərdə, daim axan sular kənarında,çoxlu meyvələr, tükənməz və qadağan edilməyən meyvələr içində və hündür döşəklər üstündə olacaqlar. Biz Cənnətdəki qadınları yeni biçimdə yaradacağıq. Onları bakirə qızlar edəcəyik – ərlərini sevən, həmyaşıdlar. Bunlar sağ tərəf sahibləri üçündür. Onların çoxu əvvəlki nəsillərdən, bir qismi də axırıncılardandır. (Vaqiə surəsi, 11-40)**

Allah, qurtuluş, xoşbəxtlik və əmin-amanlıq yeri olan cənnətin bu sonsuz nemətləriylə möminləri müjdələyərkən, eyni zamanda inkar edənləri də cəhənnəmlə müjdələyir. Sonsuz əzab yeri olan cəhənnəmin də nə şəkildə əzablarla dolu bir yer olduğu Quranda belə təsvir edilir:

**"Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri! Onlar qızmar yel və qaynar su içində, qapqara duman kölgəsində olacaqlar. Bu duman nə sərin, nə də xoşagələndir. Onlar bundan əvvəl cah-calal içində idilər, böyük günah işlətməkdə israr edirdilər və deyirdilər: "Məgər biz ölüb torpaq və sür-sümük olduqdan sonra yenidənmi dirildiləcəyik? Yaxud bizim əcdadlarımız dirildiləcəklərmi?" De: "Şübhəsiz ki, əvvəlkilər də, sonrakılar da, bəlli bir günün müəyyən vaxtında mütləq toplanılacaqlar. Sonra, siz ey doğru yoldan azanlar, haqqı yalan sayanlar! Siz mütləq zəqqum ağacından yeyəcəksiniz, qarınlarınızı onunla dolduracaqsınız, üstündən də qaynar su içəcəksiniz. Siz onu susamış xəstə dəvələr kimi içəcəksiniz". Bu onların Haqq-hesab günündəki ziyafətidir. (Vaqiə surəsi, 41-56)**

# CƏNNƏTDƏ HƏR ŞEY POZİTİV, CƏHƏNNƏMDƏ İSƏ HƏR ŞEY NEQATİVDİR

ADNAN OKTAR: *Allah Cənnət üçün* **"heç bir nəfs dadmadı, heç bir göz görmədi"** *deyir, çox-çox heyrətamiz və çox-çox gözəldir, istifadə edilən vəsait çox gözəldir. Cənnətin ən gözəl xüsusiyyətlərindən biri heç bir yer köhnəlməz, heç bir yer tozlanmaz, hər şey pozitivdir. Yəni dünyada hər şey bilirsiniz əksiylə yaradılmışdır. Yaxşı-pis, gecə-gündüz kimi orada yalnız tək tərəfli müsbət olanlar var, bu Allahın sənətidir, cənnətin qapısı başqa cür gözəldir. Qapılarına baxarsan, hər evin qapısı ayrı naxışlıdır, kresloları başqa cür gözəldir, yəni çox gözəllik vardır, o gözəlliklərə baxıb biz daim Allaha həmd edirik, yəni Allah eşqindən sanki yanır insanın ruhu, o eşqlə yanması mümkündür cənnətdə. Məsələn, bir cənnət sürahisinə baxarsan, Allaha həmd edərsən, onunla danışarsan da. "Bir az sağa dön" deyərsən dönər, "oradan mənə bir içki gətirsənə" deyərsən, "mənə belə bir içki gətir deyərsən", götürüb gətirər. "Tök stəkana" deyərsən tökər, "yerinə qayıt" deyərsən qayıdar, yəni belə çox əyləncəli və çox xoşdur cənnət. Cənnətdə, amma ən çox sevilən şey peyğəmbərlərlə edilən söhbətlər, danışıqlar, bir də insanın halal yoldaşı, orada ola biləcək ən gözəl surətlərdə təcəlli edəcək. Yüzlərlə bədən şəklində təcəlli edəcək, hurilərdən daha gözəldir cənnət qadınları, yəni mömin qadınlar çox daha gözəldirlər, yəni həm keyfiyyət olaraq, həm gözəllik olaraq, həm ruha verdikləri zövq olaraq çox daha gözəldirlər. Amma cənnət huriləri vardır, vildanlar vardır, qılmanlar vardır, oranın bəzəyi və gözəlliyidir onlar, yəni gənc, gözəl oğlanlar, gözəl kiçik uşaqlar, gənc gözəl qadınlar, bunlar müsəlmanlara xidmət edirlər. Hamısı Allahın yaratdığı xüsusi varlıqlardır, amma eyni insan kimi, yəni Allahı anmaların, üslubuyla, danışıqları belə mübarək, möhtərəm varlıqlardır. Lakin biz əgər evliysək yoldaşımızın əxlaqını bilirik, çəkdiyi əziyyətləri, çətinlikləri, cəsarəti bilirik, gözəl əxlaqını bilirik, qıldığı namazları Allah üçün etdiyi fədakarlıqları bilirik. Sonsuza qədər o gözəlliyi ilə onu sevərik o zaman. Heç unutmadan sevərik.*

*Cənnətin bir gözəlliyi də budur, yəni qarşılıqlı söhbətlər, peyğəmbərlər nələr etdi, məsələn, hər peyğəmbərə ayrı-ayrı soruşacağıq. Hz. Musa (ə.s) necə etdi, nələr etdi, onun səhnələrini görəcəyik. Burada dünyada sevdiyi heyvanları varsa, xoşlandığı şeylər varsa, onlar orada yenidən canlanırlar, onları oxşayacaq, onlarla birlikdə olacaq, amma xoşuna gələn nə varsa, məsələn texniki alətlər, onlardan xoşlanırsa onlar yaradılacaq, avtomobildən xoşlanırsa avtomobil, təyyarədən xoşlanırsa təyyarə.*

*Amma avtomobil benzinsiz gedər orada, çünki bu dünyada benzinsiz avtomobil gedərsə, motorsuz gedərsə insanın ağlının ixtiyarı qalxar ... O zaman məhz axirətdə olan da səbəbin qalxmasıdır, amma istədiyimiz hər şey olar, yəni hər cür musiqi hər cür gözəl şəkillər, heykəllər, nə istəyiriksə, yəni xoşumuza gələn nə varsa vardır.*

*Cəhənnəm tam əksidir, yəni hər şeyin biçimsiz, xarab, çirkli, üfunətli, narahat edici halı vardır. Yəni materialistlərin təsvir etdiyi tərzdədir. Yəni maqma halında olacaqdır, çox formasız, çirkin və əyri-üyrü insanlar, məsələn, ağzı burnu yumrudur. Çox çirklidir, məsələn ağzı çirklidir, bədəni çirklidir, yəni cəhənnəmdə yuyunma deyə bir şey yox, leş kimidir, son dərəcə çirklidir. Pis qoxu, pis kir, pis söz, pis mühit, pis qaranlıq, pis yeməklər, pis ümumi vəziyyət cəhənnəmin bir xüsusiyyətidir.*

*Cənnət də tam ziddidir. Məsələn, suları gözəldir, hər şeyi xoş ətir verər, məsələn, qoxu dalğaları gələr, bir gün qızılgül, bir gün qərənfil qoxusu kimi, amma çox daha mükəmməl olacaq. Məsələn, meyvələr çox ləzzətlidir, çox mükəmməldir, insanlar çiyələk*

*yeyərkən belə çiyələyə pudra şəkəri qoyar bilirsiniz, o onun əskikliyidir. Məhz demək ki, insanların şüurunda əsil bir çiyələk anlayışı var, məsələn, heç normal portağal tapa bilməz insanlar, çox nadir taparlar, amma onda da yenə bir əksiklik taparlar. Məhz əsil portağalı orada tapacaqlar, məsələn, qarpızın əslini tapa bilmirlər, gedər iki saat çalışar axtarar insanlar, orada əslini görəcəklər, inşaAllah. (Adnan Oktarın Çay TV reportajından, 25 fevral 2009)*

# MƏQSƏD ALLAHIN MƏMNUNİYYƏTİNİ QAZANMAQDIR

**De: "Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur." (Zumər surəsi, 11)**

İnsanın, Yaradıcımız olan Allahın sonsuz qüdrətinin fərqinə çatdıqdan sonra Onu unudaraq həyat sürməsi, özünü aldatmasından başqa bir şey olmaz. Allahın insandan istədiyi, Onun razılığını hədəfləmək və Onun üçün yaşamaqdır. İnsanı yaradan, ona ruzisini və hər şeyi verən, ona sonsuz olan axirəti verəcək olan Allahdır. Bu düşünüldüyündə, insanın başqalarının razılığını qazanmaq və ya nəfsini təmin etmək məqsədiylə yaşaması böyük bir nankorluqdur. Bu nankorluğun cəzası isə əbədi cəhənnəmdir.

Məhz insan bu həqiqətlə qarşı-qarşıyadır. Ya həyatını Allahın rizası üzərində quracaq və beləcə, Onun razılığını və cənnətini qazanacaq, ya da cəhənnəmə gedən bir yolu seçəcək. Üçüncü seçim haqqı yoxdur. Bir ayədə bu həqiqət çox açıq şəkildə belə ifadə edilir:

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Quranda əmr edilən gözəl əxlaq da tamamilə Allah rizası üzərində qurulmuşdur. Məsələn, Allahın bəyəndiyi bir rəftar olan fədakarlıq, əgər qarşılığında bir gözlənti və ya bir göstəriş məqsədi yoxsa, yalnız Allahın razılığı üçün edilərsə qiymətlidir. Quranda möminlərin gözəl əxlaqının yalnız Allah rizası üçün olduğu belə izah edilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! (İnsan surəsi, 8-9)**

Bir insan üçün ola biləcək ən böyük xoşbəxtlik və şərəf, Rəbbimiz olan Allahın özündən razı olmasıdır. Allah verdiyi bütün nemətlərlə qullarını Özündən razı edər. Bir ayədə Allahın razılığını qazanmış və Allahdan razı olmuş möminlərin mükafatı belə izah edilir:

**Onların Rəbbinin yanındakı mükafatı ağacları altından çaylar axan, içində əbədi qalacaqları Ədn bağlarıdır. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu nemətlər, Rəbbindən qorxan kimsələrdən ötrüdür!. (Beyyinə surəsi, 8)**

Allah rizası, yalnız müəyyən ibadətlər və ya müəyyən zamanlar üçün deyil, həyatın hamısı üçün keçərlidir. Aşağıdakı ayədə, bir mömінin bütün həyatının tək bir məqsədə istiqamətli olması lazım olduğu belə bildirilir:

**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

# GÜNAH VƏ TÖVBƏ

İnsanları din əxlaqından uzaqlaşdıran səbəblərdən biri də, işlədikləri günahların gətirdiyi günahkarlıq duyğusu səbəbiylə özlərini nicat tapmaz kəslər olaraq görməyə başlamalarıdır. Şeytan bu yersiz düşüncəni həmişə alovlandırar. Bir günah işləyən insana "sən günahkar və Allaha qarşı üsyankarsan, bunu belə qəbul et" mesajı verir. İnsanın günahı ikiysə, bunu dərhal dördə, səkkizə, onaltıya çıxarmağa çalışar. İnsanın günahı səbəbiylə Allaha qarşı duyduğu xəcalət hissini istifadə edər və bunu o insanı Allahdan tamamilə uzaqlaşdırmaq üçün istifadə edər.

Şeytanın hər hiyləsi kimi bu da zəifdir. Çünki bir insanın günah işləməsi, onun Allahın Qatında lənətləndiyi və artıq doğru yolu tapa bilməyəcəyi mənasını verməz. Nəinki bir günah, ən böyük günahları dəfələrlə işləmiş də olsa, nəticədə hər zaman bütün bunlardan peşman olub Allaha yönəlmə imkanı vardır. Allah, günahlarından dolayı səmimi bir şəkildə tövbə edən, yəni bağışlanma diləyib artıq o günahı işləməməyə əzm edən hər kəsi bağışlayacağına Quranda xəbər vermişdir:

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 39)**

Allah sonsuz mərhəmət sahibidir. Allah bir ayədə biz qullarına, "**Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm!"** (Bəqərə surəsi, 160) deyə müjdə verir. Tövbə imkanı hər kəs üçün keçərlidir. Məsələn, Allah, Özünə iman etdikdən sonra azaraq, qızıldan bir büt düzəldib ona sitayiş edən bəzi yəhudilərin tövbəsini qəbul etmiş və onları bağışlamışdır:

**O zaman Musa öz qövmünə dedi: “Ey qövmüm! Siz buzova ibadət etməklə özünüzə zülm etdiniz. Odur ki, Yaradanınıza tövbə edin və nəfsinizi öldürün. Bu, Yaradanınızın yanında sizin üçün xeyirlidir”. O, sizin tövbənizi qəbul etdi. Doğrudan da O, tövbələri qəbul edəndir, Rəhmlidir. (Bəqərə surəsi, 54)**

Bir insan işlədiyi günahdan ötrü tövbə etdikdən sonra da yenidən qəflətə düşüb eyni günahı işləyə bilər. Bəlkə bu dəfələrlə təkrarlanar. Amma son bir dəfə tövbə edib o günahı bir daha təkrar etmədikdə, tövbəsinin qəbul edilməsini Allahdan ümid edə bilər.

Ancaq hər mövzuda olduğu kimi bu mövzuda da əsil olan səmimiyyətdir və səmimiyyətdən uzaq bir düşüncəni Allah qəbul etməyəcək. Bəzi insanların qapıldığı "mən günah işləməyə davam edim, sonra bir gün tövbə edərəm" şəklindəki düşüncə səmimiyyətsizdir və sonu hüsranla nəticələnə bilər. Allah belə düşünənləri Quranda bu cür xəbərdar edir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!” – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

# İBADƏTLƏRDƏ DƏQİQLİK GÖSTƏRMƏK

İman sahibi bir insan ibadətlərinə göstərdiyi diqqətlə özünü müəyyən edər. Allahın fərz buyurduğu 5 vaxt namaz, oruc, dəstəmaz ibadətlərini həyatı boyunca, sağlamlıq şərtləri əlverişli olduğu müddətcə şövqlə davam etdirər. Allah saleh müsəlmanların ibadət şövqünü bir çox ayəsi ilə xəbər vermişdir:

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Məhz onlar, bu yurdun (dünyanın gözəl) nəticəsi (axirət xoşbəxtliyi) onlar üçündür. (Rad surəsi, 22)**

**O kəslər ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər. (Həcc surəsi, 35)**

## Namazın əhəmiyyəti

İmandan sonra gələn ən əhəmiyyətli ibadətlərdən olan namaz, möminlərə həyatları boyunca davam etdirmələri əmr edilən, vaxtları təyin olunmuş bir ibadətdir.

İnsan unutmağa və qəflətə düşməyə meyilli bir varlıqdır. İradəsini istifadə etməyib özünü gündəlik hadisələrin axışına qapdırsa, diqqətini verməli və ağlında tutmalı olan mövzulardan uzaqlaşar. Allahın hər istiqamətdən özünü əhatə etdiyini, hər an özünü izlədiyini, eşitdiyini, etdiyi hər şeyin hesabını Allaha verəcəyini, ölümü, cənnətin və cəhənnəmin varlığını, qədərdən kənar heç bir hadisənin meydana gəlməyəcəyini, qarşılaşdığı hər şeydə, hər hadisədə bir xeyir olduğunu unudar. Qəflətə düşərək, həyatının əsil məqsədini yadından çıxara bilər. Gündə beş vaxt qılınan namaz isə, unutqanlıq və qəfləti yox edər, möminin şüurunu və iradəsini canlı tutar. Möminin həmişə Allaha yönəlməsini təmin edər və Yaradıcımızın əmrləri istiqamətində bir həyat davam etdirməsinə kömək edər. Namaz qılmaq üçün Allahın hüzurunda dayanan mömin, Rəbbimiz ilə güclü bir mənəvi əlaqə qurar. Namazın insana Allahı xatırlatdığı və insanı hər cür pislikdən saxladığı bir ayədə belə bildirilir:

**Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

Namaz ibadəti, başda peyğəmbərlər olmaq üzrə bütün iman edənlərə fərz qılınmış bir ibadətdir. Tarix boyunca insanlara göndərilmiş olan peyğəmbərlər qövmlərinə Allahın fərz buyurduğu bu ibadəti təbliğ etmişlər, özləri də həyatları boyunca bu ibadəti ən gözəl və ən doğru şəkildə tətbiq edərək bütün möminlərə nümunə olmuşlar. Bu istiqaməti ilə namaz, Allahın elçilərinin qövmlərinə etdikləri feli bir təbliğ şəklidir. Quranda, peyğəmbərlərə namaz qılmalarının əmr edilməsi, onların bu ibadətə verdikləri əhəmiyyət, bu ibadəti yerinə yetirmədə və qorumada göstərdikləri qətiyyət, qövmlərinə namaz qılmağı əmr etmək ilə əlaqədar bir çox ayə mövcuddur. Bu ayələrdən bəziləri belədir:

- Hz. İbrahim (ə.s) üçün:

**Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə! (İbrahim surəsi, 40)**

- Hz. İsmayıl (ə.s) üçün:

**Kitabda İsmayılı da xatırla! Həqiqətən, o öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (Məryəm surəsi, 54-55)**

- Hz. Musa (ə.s) üçün:

**Həqiqətən, Mən Allaham, Məndən başqa heç bir tanrı yoxdur; Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl. (Taha surəsi, 14)**

Mömin qadınlara nümunə olaraq göstərilən hz. Məryəmə də namaz qılması əmr edilmişdir:

**Məryəm, öz Rəbbinə itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get. (Ali İmran surəsi, 43)**

Allahın sözü olan hz. İsa (ə.s) da eyni əmri almışdır:

**Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki, sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi (Məryəm surəsi, 30-31)**

## Namaz hansı vaxtlarda fərz qılınmışdır?

Quranda, namazın möminlərə vaxtları müəyyən bir ibadət olaraq fərz qılındığı bildirilir. Ayədə belə buyurulur:

**Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə sizdən sovuşduqda isə, namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir. (Nisa surəsi, 103)**

Namaz vaxtları, "sübh", "zöhr", "əsr", "şam" və "işa" olmaq üzrə beş vaxtdan ibarətdir. Namaz vaxtları bir çox Quran ayəsində bildirilmişdir. Bir ayədə belə buyrulur:

**Onların dediklərinə səbir et. Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə təriflə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona tariflər de ki, bəlkə razı qalasan. (Taha surəsi, 130)**

Allahın vəhy və ilhamı Quranı ən yaxşı anlayan və təfsir edən Peyğəmbərimiz (s.ə.v) də beş vaxt namazın gün içindəki başlanğıc və bitmə zamanlarını möminlərə təsvir etmişdir. Namaz vaxtlarının bildirildiyi ən məşhur hədis-i şəriflərdən biri İbn-i Abbasın bildirdiyi hədisi-şərifdir:

*Rəsulullah buyurdu ki: "Rəsulullah (əleyhissalatu vəssalam) buyurdular ki:" Cəbrayıl (əleyhissalam) mənə, Beytullahın yanında, iki dəfə imamlıq qıldı. Bunlardan birincidə zöhrü, kölgə ayaqqabı bağı qədərkən qıldı. Sonra, əsri hər şey kölgəsi qədərkən qıldı. Sonra şamı günəş batdığı və oruclunun orucunu açdığı zaman qıldı. Sonra işanı, üfüqdəki işıqlıq (şəfəq) itincə qıldı. Sonra sübh şəfəq söküldükdə və orucluya yemək haram olduqda qıldı. İkinci səfər zöhrü, dünənki əsrin vaxtında hər şeyin kölgəsi özü qədər olduqda qıldı. Sonra əsri, hər şeyin kölgəsi özünün iki misli olduqda qıldı. Sonra şamı, əvvəlki vaxtında qıldı. Sonra işanı gecənin üçdə biri gedincə qıldı. Sonra sübhü, yer üzü ağarınca qıldı. Sonra Cəbrayıl (əleyhissalam) mənə yönəlib: "Ey Məhəmməd Bunlar səndən əvvəlki peyğəmbərlərin (əleyhimussalatu vəssalam) vaxtıdır. Namaz vaxtı da bu iki vaxt arasında qalan zamandır!" dedi."*

İstər Quran ayələri, istər Peyğəmbərimiz (s.ə.v)-in səhih hədisləri, istərsə də İslam alimlərinin şərhlərindən aydın olduğu kimi namazın beş vaxt olduğu sabit və müzakirə edilməz bir həqiqətdir. Beş vaxt namaz fərz, vacib və sünnətləriylə 40 rükətdən ibarətdir. Bu rükətləri namaz vaxtlarına görə paylanması isə aşağıdakı kimidir:

- Sübh namazı: 2 rükət sünnət, 2 rükət fərz
- Zöhr namazı: 4 rükət ilk sünnət, 4 rükət fərz, 2 rükət son sünnət
- Əsr namazı: 4 rükət sünnət, 4 rükət fərz
- Şam namazı: 3 rükət fərz, 2 rükət sünnət
- İşa namazı: 4 rükət ilk sünnət, 4 rükət fərz, 2 rükət son sünnət, 3 rükət vitr namazı

## Müsəlman huşu içində namaz qılar

Huşu, “hörmət dolu qorxu” mənasını verər. Namazı huşu içində qılmaq isə Uca Rəbbimizin hüzurunda Onun heybət və əzəmətini qəlbimizdə hiss edərək, Ona hörmət dolu bir qorxu bəsləyərək bu ibadəti yerinə yetirməkdir. Namazda Aləmlərin Rəbbi olan Allahın hüzurunda dayandığını şüurunda olan bir mömin əlbəttə ki, bu güclü heybət və qorxunu içində yaşayacaq və Allaha bu qorxusu və hörməti ölçüsündə yaxınlaşacaqdır.

Namaz ibadətini layiqincə yerinə yetirmək istəyən bir mömin, huşuya maneə törədəcək şeylərə qarşı tədbir almalı, namazda lazım olan diqqət və fikri təmin etməyə maksimum səy göstərməlidir. Rəbbimiz, Öz hüzurunda dayandığımızda, yalnız Onu anmağımızı, Onu ucaltmağımızı və bütün nöqsanlardan münəzzəh tutaraq Onun tək olduğunu vurğulamağımızı buyurur. Namaz qılmaq da bütün bunları həyata keçirmək üçün böyük bir fürsətdir. Necə ki, ayədə Allah Özünü zikr etmək üçün namaz qılınmasını buyurur:

**Həqiqətən, Mən Allaham, Məndən başqa heç bir tanrı yoxdur; Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl. (Taha surəsi, 14)**

## Namazın fərzləri

A- Xaricindəki fərzləri yeddidir. Bunlara şərtləri də deyilir.

Hadesdən (ayaq yolu) təharət.

Nəcasətdən təharət.

Sətr-i avrət

İstiqbal-i Qiblə

Vaxt

Niyyət

İftitah və tahrimə təkbiri

B- İçindəki fərzləri beşdir. Bunlara rükn deyilir.

Qiyam

Qiraət

Rüku

Səcdə

Son oturuş

**Hadəsdən təharət**: Dəstəmazı olmayan bir kimsənin dəstəmaz almasına, boy dəstəmazı alması lazım olan bir kimsənin də qüsl etməsinə hadəsdən təharət deyilir.

**Nəcasətdən təharət**: Bədəndə, geyilən paltarlarda, və ya namaz qılınacaq yerlərdə, namaza mane olacaq pisliklərin təmizlənib aradan qaldırılmasına nəcasətdən təharət deyilir.

**Vaxt**: 5 vaxt namazı öz vaxtları içində qılmaqdır.

**İstiqbal-i Qiblə**: Namazı, qibləyə yəni, Məkkə şəhərindəki Kəbəyə yönəlib qılmaq deməkdir.

**Niyyət**: Qılınacaq namazın hansı namaz olduğunu xatırlayıb içindən niyyət etməkdir.

**Təkbir**: "Allahu əkbər" cümləsi Xaliqimizin ən böyük olduğunu deməkdir.

**İftitah təkbiri**: Namaza başlayarkən deyilən ilk təkbirlərdir.

**Qiyam**: Üzrü olmayan bir kimsənin, namazlarını qılarkən, ayaqda dik vəziyyətdə dayanmasıdır.

**Qiraət**: Namazda, ayaq üstə ikən Qurani Kərimdən bir və ya bir neçə ayə oxumaqdır.

**Rüku**: Ovuç içlərini diz qapaqlarına yapışdıraraq, baş ilə arxa düz olacaq şəkildə ikiqat olmaq deməkdir.

**Səcdə**: Burnu, alnı, əlləri, dizləri və ayaqları yerə qoymaq və toxundurmaqla səcdə etmək deməkdir.

**Son oturuşda təşəhhüd qədər oturmaq**: Qılınan namazın son oturuşunda (əttəhiyyatu) nu oxuyana qədər oturmaq. Yuxarıda sayılan maddələrdən sətr-i avrət, qiblə və dəstəmaz mövzularını açıqlamaqda fayda vardır:

### Sətr-i Avrət nədir?

Mükəlləf olan, yəni ağıllı və yetkin olan insanın namaz qılarkən açması və digər zamanlarda başqasına göstərməməsi və başqasının baxması haram olan yerlərinə sətr-i avrət (avrət mahalı) deyilir. Kişilərin, namaz üçün avrət yerləri, göbəkdən diz altına qədərdir. Azad olan qadınların əllərindən və üzlərindən başqa hər yerləri, biləkləri, saçları və ayaqlarının altı namaz üçün avrət yerləridir. (Ətraflı məlumat üçün baxın. *Kuran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Ömer Nasuhi Bilmen, Bilmen Yayıncılık*)

## Dəstəmaz

Namaz qılacaq olan mömin əvvəlcə dəstəmaz almalıdır. Dəstəmazın müəyyən fərzləri vardır. Bunlar belədir:

-Üzü bir dəfə yumaq

-Dirsəklərlə birlikdə iki qolu bir dəfə yumaq

-Başın dörddə bir hissəsi məsh edilir

-İki ayağı, iki yandakı topuq sümükləri ilə birlikdə bir dəfə yumaq.

Dəstəmazın fərzləri ilə bərabər sünnətləri vardır. Dəstəmaz alan bir möminin yerinə yetirməli olduğu sünnətlər isə belədir:

- bəsmələ çəkmək

-əllər, biləkləri ilə bərabər, üç dəfə yumaq

-ağzı, ayrı-ayrı su ilə üç dəfə yumaq

-burnu, ayrı-ayrı su ilə üç dəfə yumaq

-qaşların, saqqalın, bığın altındakı görünməyən dərini islatmaq

-üzü yuyarkən iki qaşın altını islatmaq

-saqqalın sallanan hissəsini məsh etmək

-saqqalın, sallanan qisminin içinə, sağ əlin yaş barmaqlarını, daraq kimi salmaq

-dişləri nəyləsə silmək, təmizləmək

-başın hər tərəfini bir dəfə məsh etmək

-iki qulağı bir dəfə məsh etmək

-ənsəni, üç bitişik barmaqlarla, bir dəfə məsh etmək

-əl və ayaq barmaqlarının arasını məsh etmək

-yuyulacaq yerləri, hər birində üzvün hər yeri islanacaq şəkildə üç dəfə yumaq

-üz yuyarkən səmimi niyyət etmək

-tərtib, yəni sıra ilə iki əli, ağzı, burnu, üzü, qolları, başı, qulaqları, ənsəni və ayaqları yumaq və məsh etmək

-yuyulan yerləri silmək

-hər üzvü, bir-birinin ardınca yuyub ara verməmək.

## Qiblə

Məkkə şəhərində və Məscidi-ul Haramda yerləşən Kəbə qiblədir və müsəlmanların namaz qılarkən ona doğru yönəlmələri lazımdır. İslamın beş şərtindən biri olan namaz ibadəti, qiblə istiqamətinə dönülərək həyata keçirilir. Quranı Kərimdə, möminlərin namaz qılarkən üzlərini dönmələri lazım olduğu qiblənin, Kəbə olduğu bildirilmişdir. Məkkənin xaricində və Məkkədən uzaq olanların "qiblə istiqamətinə doğru" dayanmaları kifayətdir.

İslam dini, Kəbəni tək olan Allaha ibadət mərkəzi olaraq tanıtmış və müsəlmanlara, namaz qılanlar və ibadət edənlər arasında vəhdət, birlik və nizam olması üçün dünyanın harasında olurlarsa olsunlar üzlərini qibləyə çevirmələrini əmr etmişdir.

Qibləyə doğru namaz qılmaq, Kəbəni təmir edən hz. İbrahim (ə.s)-la hz. İsmayıl (ə.s)-ın xatirələrini xatırlamanın və ibadət üçün Allaha yönəlişin gözəl bir nümunəsidir. İnsanın yemək yeyərkən, yatarkən də bu işləri qibləyə doğru etməsi yaxşıdır. İnsan ölüncə, torpağa verildiyində də üzü qibləyə çevrilməlidir.

## Qiblə necə təyin edilir?

Qiblə, Kəbənin binası deyil, ərazisidir. Yəni yerdən Ərşə qədər, o boşluq qiblədir. Buna görə dənizin altında ya da səmada ikən bu istiqamətdə namaz qılına bilər.

Qibləni riyazi hesablarla hesablamaq mümkün olduğu kimi, kompas (qütb ulduzu) köməyi ilə də doğru istiqaməti tapmaq mümkündür. Hesablama və cihazla aparılan hesablamalarda qiblə tam olmasa da, istiqaməti haqqında qüvvətli bir zənn əldə edilmiş olur. Qiblə təyinində qüvvətli zənnə əsaslanan təsbitlər qəbul olur.

Mehrab olmayan, hesab, ulduz kimi şeylərlə də aydın olmayan yerlərdə, qibləni bilən müsəlmanlardan soruşulmalıdır.

Gəmi, qatar kimi hərəkət halında olan yerlərdə qibləyə doğru dayanıb, səcdə yerinin yanına kompas qoyulmalıdır. Beləliklə, hərəkət halındakı vasitə döndükcə, namaz qılmaqda olan adam da qibləyə doğru çevrilməlidir. Ya da başqa birisi, namaz qılan adamı sağa-sola çevirməlidir. Qiblə istiqamətini bilməyən kimsə, mehraba baxmadan, bilənə soruşmadan, ya da özü araşdırmadan namazı qılarsa, qibləyə rast gəlmiş olsa belə, namaz ibadətinin şərtlərini tam olaraq yerinə yetirməmiş olur. (Ətraflı məlumat üçün baxın. Kuran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Ömer Nasuhi Bilmen, Bilmen Yayıncılık)

# DİN ƏXLAQI İNSANIN YARADILIŞINA UYĞUNDUR

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. (Rum surəsi, 30)**

Allah, yaratdığı insanın quruluşunu əlbəttə ki, ən yaxşı bilәndir. Bu səbəbdən, insanların nəyə ehtiyacları olduğunu və bunları necə təmin edəcəyini ən yaxşı O bilir. İnsanın fiziki quruluşunu qorumaqda psixoloji olaraq necə sağlam olacağına və ictimai həyatın ən xoşbəxt və hüzurlu şəklinə qədər ən gözəl sistemi Allah müəyyən edir. Məsələn, insan yaradılışına uyğun olaraq mərhəmətdən, sevgidən, şəfqətdən və gözəl əxlaqın hər şəklindən xoşlanar. Özünə həmişə bu şəkildə davranılmasını gözləyər. Zülmdən, əxlaqsızlıqdan və pisliyin hər cür növündən nifrət edər və qaçar. Belə hiss etməsi, Allahın diləməsi ilədir. Allah, insanın fitrətini, vicdanını bu şəkildə yaratdığı üçün insan, gözəllikdən xoşlanıb pislikdən uzaq durar. Allahın Quranda əmr etdiyi təməl əxlaq xüsusiyyətləri; mərhəmətli, şəfqətli, ədalətli, etibarlı, dürüst, təvazökar bir insan olmaq və zülmdən, haqsızlıqdan, pislikdən çəkinməkdir. Digər bir ifadə ilə, Allahın göndərdiyi İslam dininin insandan istədikləriylə, insanların təbii olaraq yaşamaq istədikləri, açar və onun açdığı qıfıl kimi, bir-birinə tam bir uyğunluq içindədir. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

İnsanlar, Allahın endirdiyi ayələri tətbiq etmədikləri müddətcə özlərinə zülm etmiş olarlar. Çünki yaradılışına uyğun olan davranışı, əxlaqı göstərməyərək öz quruluşlarına əks düşən bir əxlaq sərgiləyərlər; bu da həm vicdani olaraq narahat olmaları, həm də başqa insanları narahat etmələri ilə nəticələnər və ayədə bildirildiyi kimi öz-özlərinə zülm etmiş olarlar:

**Şübhəsiz ki, Allah, insanlara heç bir şeylə zülm etməz. Ancaq insanlar, öz nəfslərinə zülm edirlər. (Yunis surəsi, 44)**

Unudulmamalıdır ki, İslam əxlaqı ancaq səmimi olaraq içdən gələn bir istəklə, könüldən yaşana bilər və Allah belə bir imanı məqbul görəcəyini bildirir. Zorla yaşadılan din əxlaqı Allah qatında keçərli olmadığı kimi, Quranda münafiq olaraq adlandırılan ikiüzlü insanların çoxalmasına səbəb olur. Bu da, cəmiyyətə zərərli olacaq bir quruluşun meydana gəlməsi deməkdir. Allah, din adına insanların məcbur edilməmələrini əmr etmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

Bu səbəbdən, İslam dini heç bir sahədə insanların üzərində təzyiq meydana gətirmədiyi kimi, insanlara əsil fikir və vicdan azadlığını qazandırar. Quran əxlaqının gərəyi olan gözəl əxlaqı yaşayan insan, heç bir şəkildə məhdudiyyətlərlə üzləşməz. Ağılla və ürəkdən inancları istiqamətində yaşadığı üçün hər zaman hüzurlu, rahat və xoşbəxt olar.

Din əxlaqını yaşamayan insanlar isə, möminlərin azadlığına sahib ola bilməzlər. Çünki, cəmiyyətə kök salmış bir çox batil qayda və inanc vardır. Dinin dəyərləri ilə yaşamayan cəmiyyətlər, öz-özlərinə çox sayda yanlış dəyər və ölçü qoyar, qadağalar meydana gətirər və Allahın verdiyi azadlıqları öz əlləriylə məhdudlaşdırarlar. Məhz din əxlaqından uzaq olan insanlar, həm cəmiyyətin cahil qaydaları, həm ətrafdakı insanların sanksiyaları, həm də öz-özlərinə qoyduqları lazımsız prinsiplər səbəbiylə mənəvi azadlıqdan məhrum olarlar.

İnsanı ətrafındakı cəmiyyətdən daha da böyük bir təzyiq altına salan güc isə, nəfsindəki eqoist ehtiraslardır. Bu eqoist ehtiraslar insana həmişə narahatlıq verər. Daimi etibarsızlıq və gələcək qorxusu aşılayar. İnsan nəfsindəki bu mənfi güc səbəbiylə sonu gəlməyən bir ehtiras içində boğuşar. Nəfsi, ona daima daha çox mal yığmasını, daha çox pul qazanmasını, özünü insanlara bəyəndirmək üçün daha çox cəhd etməsini əmr edər. Halbuki, bu ehtirasların təmin edilməsi mümkün deyil. Zəngin olmaq böyük bir ehtirasdır, ancaq bu təmin edildiyində yeni ehtiraslar gələcəkdir. Qısacası, dünyaya istiqamətli yaşanan bütün ehtiraslar, sonsuz bir dövr içindədir. Məhz insan bu cahil sistemdən ancaq Allaha iman edib həyatını Ona təslim etməklə xilas olar. Allah bu mövzuda Quranda belə buyurur:

**"... Kim nəfsinin xəsisliyindən və eqoist ehtiraslarından qorunubsa, məhz onlar, nicat tapanlardır". (Həşr surəsi, 9)**

İnsan bu ehtirasların əsiri olmaqdan xilas olaraq azadlıq tapar. Artıq onun həyatının məqsədi, bəhs edilən, sonu gəlməz ehtirasları təmin etmək deyil. Həyatının məqsədi, yalnız Allahın razılığını qazanmaqdır ki, insan onsuz da bunun üçün yaradılmışdır.

Həqiqi azadlıq budur; Allaha qul olmaq və beləcə Allahdan başqa hər şeydən azadlaşmaq. Bu səbəblədir ki, İmranın arvadı, Quranda bildirilən bu duanı etmişdir:

**"...Ey Rəbbim! Mən bətnimdəkini Sənə qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən”. (Ali İmran surəsi, 35)**

Eyni səbəbdən, hz. İbrahim (ə.s), ayədə bildirildiyi kimi, atasına belə demişdir:

**"...Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? (Məryəm surəsi, 42)**

Allahın insanlara elçi olaraq göndərdiyi rəsullar, tarix boyunca insanları nəfslərindəki ehtiraslara, ya da başqa insanlara qul olmaqdan xilas olmağa və yalnız Allaha qul olmağa dəvət etmişlər. İnsanlar, yaradılış məqsədlərinə zidd olan bu azğınlıqlardan xilas olduqları zaman nicat taparlar. Məhz bu səbəblədir ki, Quranda Rəsul, möminlərin "ağır yüklərini yüngülləşdirən və onları buxovlardan xilas edən" adam olaraq təsvir edilir:

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır”. (Əraf surəsi, 157)**

İslamın insan fitrətinə uyğun olmasının bir başqa səbəbi, asan olmasıdır. Allah, insanın yaradılışına uyğun olaraq endirdiyi dini, eyni zamanda yaşanılmasını asan etmişdir. Bu həqiqət müxtəlif ayələrdə bu cür xəbər verilir:

**Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır. (Nisa surəsi, 28)**

**... Allah, sizə asanlıq diləyər, çətinlik diləməz ... (Bəqərə surəsi, 185)**

**İman gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcəkdir. Biz ona əmrimizdən asan olanı buyuracağıq”. (Kəhf surəsi, 88)**

**Allah onu nütfədən yaratdı və müəyyən şəkildə formalaşdırdı. Sonra da onun yolunu asanlaşdırdı. (Əbəsə surəsi, 19-20)**

Bu asanlıq, ibadətlər üçün də keçərlidir. Allah, Ramazan ayında tutulması fərz qılınan oruc ibadəti ilə əlaqədar bir ayədə belə buyurur:

**İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz. (Bəqərə surəsi, 185)**

İslam, insanın yaradılışına tamamilə uyğun bir dindir. Çünki İslamı seçib din edən, insanı da yaradan Allahdır. Allah, yaratdığı qullarına çətinlik deyil, asanlıq diləmiş, onların ehtiyac və istəklərinə ən uyğun əxlaq və həyat modelini din etmişdir. Rəbbimiz, bir ayədə belə buyurur:

... **Bu gün kafirlər sizi dininizdən döndərməkdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim... (Maidə surəsi, 3)**

# MÖMİNLƏR BİRLİK VƏ BƏRABƏRLİK İÇİNDƏ OLMALIDIR

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz. (Ali İmran surəsi, 103)**

İnsanlar, dostlarını və yoldaşlarını öz xarakterlərinə bənzər, həyat anlayışlarına uyğun, ortaq nöqtələrinin çox olduğu və razılaşa biləcəyi insanlardan seçərlər. Bunun təbii bir nəticəsi olaraq, müəyyən anlayışları paylaşan insanların bir-birləriylə qaynaşdıqlarını görərik. Namuslu, dürüst insanlar, yenə özləri kimi namuslu, dürüst insanlarla yoldaşlıq edər; pislərlə dostluq qurmazlar. Əxlaqsız, cinayətə meyilli kəslər də, namuslularla deyil, özləri kimilərlə əlaqə qurarlar. Möminlər isə, Uca Rəbbimiz Allahın istəyi üzərinə, yaradılışına da uyğun olaraq bir-birləriylə həmişə birlikdə olmalıdır. Necə ki, bu, Allahın Quranda əmr etdiyi bir ibadətdir. Allah möminlərə, yenə möminlərlə birlikdə olmalarını və qəflət içindəki insanlara uymamalarını belə əmr edir:

**Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!. (Kəhf surəsi, 28)**

Möminlər dünya üzərində yalnız Allahın razılığını güdən tək insan qrupudur. Allahın məmnun olacağı gözəl əxlaqı yalnız onlar yaşayarlar. Bu əxlaq da tək başına yaşana bilməz; bunun gündəlik həyata keçirilib tətbiq edildiyi mühit və insanlar lazımdır. Allah, məmnun olacağı rəftar olaraq bizdən ədalətli olmağı, şəfqətli və mərhəmətli davranmağı, fədakarlıq etməyi, yaxşılığı tövsiyə etməyimizi və bunlar kimi onlarla gözəl əxlaq xüsusiyyətini göstərməyimizi istəyər. Bunlar isə, birlikdə olub tətbiq ediləcək insanlar olmazsa, yaşana bilməz. Bir başqa sözlə, şəfqətli və fədakar bir insan ola bilmək üçün, insanın ətrafında bunu tətbiq edənlər olmalıdır, həm də bu gözəl rəftarlardan anlayacaq və buna layiq olan kimsələr. Bunlar ancaq möminlər ola bilər.

Heç bir səmimi mömin, özü kimi olmayan, yəni Allahın ölçüləriylə hərəkət etməyən, Quran əxlaqını mənimsəməmiş, bu səbəbdən ətrafındakıların da özü kimi qafil olmasını istəyən, hətta bunun üçün səy göstərən kəslərlə dost olmaq istəməz, həyatını onlarla birlikdə keçirməz. Üstəlik, inanclarına hörmət etməyən, möminləri yalnız Allaha inanmaları və din əxlaqını yaşamalarına görə qınayan, cəmiyyətdən qoparmaq istəyən və düşmən kimi davrananlara qarşı sevgi hissləri də bəsləməz:

**Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar.Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər. (Mumtəhənə surəsi, 1-2)**

Allah belə insanlara sevgi bəsləməməyi, onlarla dost olmamağı və doğru olanlarla, yəni möminlərlə birlikdə olmalı olduqlarını bildirir:

**Ey iman gətirənlər! Allahdan qorxun və doğrularla birlikdə olun. (Tövbə surəsi, 119)**

Əlbəttə mömin, inkarçılar da daxil olmaqla hər kəsə dostcasına və mülayim bir üslubla yaxınlaşacaq, hər insana ədalətli bir şəkildə davranacaq. Ancaq inkar edən insanlara səmimi və ədalətli davranmaqla onlarla həqiqi mənada dost olmaq çox fərqlidir. Mömin, ancaq özü kimi mömin olanlarla həqiqi mənada dost olar. Bu, Allahın bir hökmüdür:

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər. (Maidə surəsi, 55)**

# SON SÖZ

Bu kitab boyunca izah edilən həqiqətlər, dünyanın ən əhəmiyyətli həqiqətləridir. İnsanı Allah yaratmışdır və insan Ona geri dönəcək bir varlıqdır, buna görə, heç bir şey insanın Allahı tanımasından və Ona ibadət etməsindən daha əhəmiyyətli olmaz.

Buna görə, bu həqiqətlərə lazım olan əhəmiyyəti verməniz və həyatınızı bunlara görə nəzərdən keçirməniz, bəlkə yenidən tənzimləməniz lazımdır.

Sizi yaradan Allahı tanıyırsınızmı?

Ona şükür edirsinizmi?

Onun sizə yol göstərici olaraq göndərdiyi kitabdan xəbəriniz varmı?

Və ya bu kitabı həyata keçirmək üçün nələr edirsiniz?

Əmin olun ki, bunlar sizin həyatınızın ən əhəmiyyətli mövzularıdır. Başqa hər şey keçib gedəcək, hər şey yox olacaq, amma Allah baki qalacaq. Allahın vədi, yəni axirət və hesab da bakidir. Bir gün öləcək, sonra diriləcək və Allaha hesab verəcəksiniz.

Unutmayın ki, həm dünyada xoşbəxt həyat sürməniz, həm də axirətdəki sonsuz xoşbəxtliyiniz Allaha qulluq etmənizə bağlıdır. Onsuz da Allah sizi bunun üçün yaratmışdır. Yaradılış məqsədinizə təslim olun və Allaha yönəlib Rəbbimizə ibadət edin.

Və Ona ibadətdə, ayədə buyurulduğu kimi qərarlı olun:

**O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!** (**Məryəm surəsi, 65)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz

vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən

böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat

modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Uca Quran, Allah Qatından insanları zülmətdən nura çıxarmaq üçün göndərilmişdir. Bütün canlıları və insanları yaradan Uca Rəbbimiz, Öz qullarına həqiqi və doğru yolu Quranla göstərir. Allah Quranda, "Ey insanlar, Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa və möminlər üçün hidayət və mərhəmət gəlmişdir" (Yunis surəsi, 57) buyurur.

Allah, insanları Quranın bir çox ayəsində, Öz yaratdığı varlıqlardakı hikmətləri, dünya həyatının keçiciliyini və axirət həyatını düşünməyə dəvət edir. Bununla yanaşı, Quranda, keçmiş peyğəmbərlərin həyatlarından hissələr bəhs edilir, onların səmimi imanları, Allaha olan bağlılıqları və din əxlaqını yaymaqda göstərdikləri dayanıqlılıq açıqlanır. Qurandakı bəzi ayələrdə də insanların gündəlik həyat içində göstərmələri lazım olan nümunəvi əxlaq xüsusiyyətləri bildirilir.

Bu kitabda, Uca Allahın bizlərə Quranda öyrətdiyi məlumatlara əsaslanaraq, Allahı, Onun sifətlərini, bu dünya üzərindəki həyatımızın məqsədini, bu məqsədə çatmaq üçün etməli olduqlarımızı, bizi gözləyən ölümün və ölüm sonrası həyatın əsil xüsusiyyətlərini izah edəcəyik.

Bu məlumatları diqqətlə oxuyun və üzərində düşünün. Çünki bu məlumatlar, sizə Yaradıcımız olan Uca Allahı tanıdır və sonsuz xoşbəxtlik və qurtuluşun yolunu göstərir.